Günəş Şərqdən doğur!

❒ № 24 (5305), 2021-ci il

# ŞƏRQ

Qiyməti 40 qəpik

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 9 fevral 2021-ci il (çərşənbə axşamı)




## Azərbaycanda tablo dəyişir

44 nəfər yoluxub, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 44 yeni yoluxma faktı qeydə alınıb, 102 nəfər müalicə olunaraq sağalıb.

(Səh.4)

## Azərbaycanda hiss olunan zəlzələlər qorxulu deyil



Zonaların aktivliyindən asılı olaraq hər gün xırda təkanlar olur

(Səh.6)

### Günün içindən...



## Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışı olub

Mərasimdə Prezident İlham Əliyev iştirak edib

Fevralın 8-də Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.

(səh.2)

## Rövşən Əkbərov və Xəqani Cəbrayılov ehtiyata buraxılıb



Azərbaycan Ordusunun birlik komandirləri general-leytenant Rövşən Əkbərov və general-mayor Xəqani Cəbrayılov vəzifələrindən azad ediliblər.

(səh.2)

# Reallıqlarla barışıblar



## Qarabağda vəziyyət sürətlə rəsmi Bakının xeyrinə dəyişir

(səh.5)

## Pandemiya gəncliyi "vurdu"

Bu təbəqə həm ailələri, həm də öz gələcəkləri üçün narahatdır

(səh.9)



## ✓ Prosedur asanlaşdırılır

Uşaqların qohumları tərəfindən övladlığa götürülməsi rahat oldu

(səh.3)

## ✓ Türkiyə azərbaycanlı şəhid övladlarına təhsil təqaüdü ayıracaq

(səh.7)

## ✓ Azərbaycan radioları Dağlıq Qarabağ və ətraf ərazilərdə yayımlanacaq

(səh.12)

## ✓ Təhsil müəssisələri tez açıldı

Məktəblərdə məsafə saxlamaq mümkün olmayacaq

(səh.13)



## "Əl qumbarasını hazırladıq ki, əsir düşməyək"

Qazi Sahib Qurbanov: "Morqa aparanda yarı yolda xırıldadığım üçün sağ olduğumu biliblər"

(səh.8)

## Ermənilərin tək çörək qapısı Türkiyədir




Onların türk mallarına "qadağalar" qoyması intihara bərabərdir

(səh.6)

# Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışı olub

## Mərasimdə Prezident İlham Əliyev iştirak edib



Fevralın 8-də Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak edib.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.

Qeyd edək ki, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövlətimizin başçısının 2020-ci il 10 iyun tarixli Sərəncamına əsasən Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informatika idarəsi yaradılıb.

Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda, vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.

Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub. Eyni zamanda, cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb. Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqla təmin olunub. İnzibati binada üç iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.

Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılan və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı maddi sübutlar toplanıb.

Dövlətimizin başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi. Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salınmadan 1,5-2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilən bu cür avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.

Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

*Qeyd edək ki, Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.*



## Liderlər qərarlıdır

### Türkiyə-Avropa İttifaqı əlaqələri faydalı bir formada irəli aparılacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Almaniya kansleri Angela Merkel arasında videoformatla görüş keçirilib.**

Türkiyə-Almaniya əməkdaşlıq münasibətlərinin müzakirə edildiyi görüşdə, eyni zamanda, Türkiyə-Avropa İttifaqı əlaqələri başda olmaqla regional proseslər dəyərləndirilib.

Liderlər Türkiyə-Avropa İttifaqı əlaqələrini faydalı bir formada irəli aparmaqda qərarlı olduqlarını vurğulayıblar.

## Rövşən Əkbərov və Xəqani Cəbrayılov ehtiyata buraxılıb





**Azərbaycan Ordusunun birlik komandirləri general-leytenant Rövşən Əkbərov və general-mayor Xəqani Cəbrayılov vəzifələrindən azad ediliblər.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, bu barədə Müdafiə naziri, general-polkovnik Zakir Həsənov əmr imzalayıb.

Əmrlə hər iki general ehtiyata buraxılıb.

# Qarabağdakı bütün su anbarları, stansiyalar yoxlanacaq

## Tam hazır obyektləri qənimət kimi iqtisadi dövriyyəmizə cəlb etməkdə maraqlıyıq

Ermənistanın Geqarqunik (Kəlbəcər ərazisi) vilayətinin sərhəd ərazisində yerləşən külək elektrik stansiyası Azərbaycanın nəzarətinə keçib. Bu barədə erməni hüquq müdafiəçisi Armen Tatoyan məlumat verib. O bildirib ki, 200 hektarlıq ərazisi olan stansiya Yerevan hökuməti tərəfindən hansısa biznesmenə 30 il müddətinə icarəyə verilibmiş. Stansiya 2018-ci ildə elektrik enerjisi istehsal etmək üçün lisenziya alıb.

Ancaq 25 noyabrdan, yəni Azərbaycan Silahlı Qüvvələrinin həmin ərazilərə gəlişindən sonra şirkətin fəaliyyəti dayandırılıb. Xatırlatmaq yerinə düşər ki, torpaqlarımızın işğaldan azad olunması ilə ərazilərimizdəki bir çox strateji obyektlər, stansiyalar, su anbarları, mədən yataqları Azərbaycanın nəzarətinə keçib. Ekspertlərin fikrincə, yaxın zamanda bütün obyektlər iqtisadi dövriyyəyə cəlb olunacaq. Məlum olduğu kimi, regionun əsas elektrik enerjisi istehsalı su yığımı və təchizatı areallarına təsadüf edir. Söhbət Sərsəng və Xudafərin SES-lərindən gedir. Sərsəng SES 1976-cı ildə Tərtərçayın üzərində, keçmiş Ağdərə rayonu ərazisində inşa edilmiş su elektrik stansiyasıdır. Hazırda qeyri-qənaətbəxş vəziyyətdədir. Lakin stansiyada təmir-bərpa işləri aparıldıqdan sonra istehsal gücü daha da artırıla və ətraf rayonların elektrik enerjisinə tələbatının ödənilməsinə yönəldilə bilər. Xudafərin SES isə Araz çayı üzərində İranla Azərbaycan arasında imzalanmış razılaşmaya uyğun olaraq inşa edilir. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər. Aydındır ki, Sərsəng və Xudafərin SES-ləri ətraf rayonların enerji təminatının yaxşılaşdırılmasında, azad edilmiş ərazilərin bərpa edilməsində aktiv istifadə ediləcək. Azad olunan ərazilərin zəngin su ehtiyatları da ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Sərsəng su anbarı 1976-cı ildə Tərtərçayın üzərində inşa edilib. Onun ümumi su tutumu 560 milyon m3, bəndinin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir.



Sərsəng su anbarının daxil olduğu Ağdərə rayonunun tam azad olunması respublikanın 6 rayonunda 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaradacaq.

**İqtisadçı Fuad İbrahimli "Şərq"ə açıqlamasında deyib ki, azad olunmuş torpaqlarımızda ciddi təftiş aparıldıqdan sonra hansı iqtisadi obyektlərin istifadəyə yararlı olduğu bəlli olacaq.** Ekspertin sözlərinə görə, müvəqqəti olaraq ermənilər tərəfindən istifadə və istismar olunmuş stansiyaların, su anbarlarının nə dərəcədə effektli olması yoxlanmalıdır: "Müasir dövrün tələblərinə cavab verən külək və su elektrik stansiyalarının, o cümlədən digər obyektlərin istifadəsi həm mümkün, həm də vacibdir. Dövrün tələblərinə cavab verməyən yararsız stansiyalar isə yoxlama və təmir-bərpa işlərindən sonra işə salına bilər. Həmin stansiyaların ekoloji təhlükə yaradıb-yaratmadığı mütləq müəyyən olunmalıdır. Tam hazır obyektləri qənimət kimi iqtisadi dövriyyəmizə cəlb etməkdə maraqlıyıq. Ermənistanla 44 günlük müharibə zamanı işlək vəziyyətdə xeyli hərbi texnikanı qənimət götürdük. Onları məhv etmədik ki?! Əksinə, rənglərini dəyişib hərbi arsenalımıza qatdıq. Torpaqlarımızdakı bütün strateji obyektlər, müəssisələr də bizə məxsusdur və iqtisadi standartlarımıza uyğun gələnlərdən maksimum faydalanacağıq".

**İsmayıl Qocayev**

# “Azərbaycan Kərkinin qaytarılması üçün çox çalışır”

## Əziz Əlibəyli: “Söhbət strateji bir yerdən gedir. Çünki Ermənistanın daxili ərazisinə nüfuz etməklə müəyyən təhlükəsizlik məsələləri də həllini tapacaq”



**Ermənistan mediası Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunu işğal altındakı Kərki kəndinin Azərbaycana qaytarılması barədə yazır. ”Joğovurd” qəzetinin məlumatına əsasən Paşinyanın Ararat vilayətinə səfəri bu barədə söz-söhbətləri daha da aktivləşdirib.**

Ararat vilayətinin qubernatoru Razmik Tevonyan və Ararat alayının komandiri ilə bağlı qapılar arxasında görüşən Paşinyanın Kərki (ermənicə Tiqranaşen) kəndinin və Azərbaycanın işğal olunmuş digər anklavlarının qaytarılmasını müzakirə etdiyi bildirilir. Yayılan xəbərlərə aydınlıq gətirmək üçün ”Joğovurd” qəzeti Nikol Paşinyanın mətbuat xidmətinin rəhbəri Mane Gevorkyanla əlaqə saxlayıb: ”Biz müzakirə olunan bütün məsələlər barədə açıqlama vermişik. Təbii ki, biz situasiyanı lakonik təqdim etdik, amma əlavə etməyə də heç nə yoxdur. Baş nazir kəndlərin azad olunması barədə göstəriş verməyib”.

**Mövcud prosesləri ”Şərq”ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli Kərki kəndinin strateji əhəmiyyətə malik olduğunu bildirib.** Onun sözlərinə görə, prinsip etibarı ilə 10 noyabr razılaşmasına əsasən Kərki də qaytarılmalıdır: ”Çünki Kərki kəndi Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış əraziləri çərçivəsindədir. Artıq Azərbaycanla-Ermənistan arasında sərhəd xətlərinin demarkasiya prosesi həyata keçirilir. Bu, başa çatmaq üzrədir. Yalnız bir neçə anklav kənd və Qarabağa aid olmayan ərazilərdə işğal edilmiş müəyyən torpaq sahələri qalıb. Onlardan biri də Kərki kəndidir. Kəndin qaytarılması ilə bağlı proseslər davam etdirilir. Lakin bütün bunlar kifayət qədər ciddi bir məsələdir”.

Ə.Əlibəyli qeyd edib ki, Qazaxın kəndləri ilə müqayisə etsək, Kərki ermənilər üçün daha əhəmiyyətli bir ərazi hesab olunur: ”Çünki bölgənin özü anklav təşkil etməklə, həm də Ermənistanın içərisinə qoyulmuş bir mina xarakteri daşıyır. Ermənistanın İranla əsas nəqliyyat dəhlizi hesab olunan M10 quru yolu birbaşa həmin kəndin içərisindən keçir. Kərkinin Azərbaycana qaytarılması bütövlükdə İran-Ermənistan təchizat yolunun ölkəmizin əlinə keçməsi deməkdir”.

*Mütəxəssis qeyd edib ki, Azərbaycan yalnız Kərki kəndini qaytarmaqla kifayətlənməyəcək:* ”Eyni zamanda bu kəndin təhlükəsizliyini təmin etmək lazımdır. Ona görə də gərək Azərbaycan mütləq şəkildə ora hərbi kontingent də yerləşdirsin. Bu, Ermənistanın içərisində Azərbaycan bazasının olması anlamına gəlir.

Kərki digər kəndlərdən fərqli olaraq Azərbaycanla sərhədə o qədər yaxın ərazi sayılmır. Naxçıvanla Azərbaycanın cənub rayonları Ermənistanla İranın tən ortasında yerləşmiş bir ərazi vahididir. Bu baxımdan Azərbaycan Kərkinin qaytarılması üçün çox çalışır.

Söhbət strateji bir yerdən gedir. Çünki Ermənistanın daxili ərazisinə nüfuz etməklə müəyyən təhlükəsizlik məsələləri də həllini tapacaq”.

**Yeganə Bayramova**



# Prosedur asanlaşdırılır

## Uşaqların qohumları tərəfindən övladlığa götürülməsi rahat oldu

**Azərbaycanda uşaqların qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) tərəfindən övladlığa götürülməsi proseduru asanlaşdırılır.**

Bu, Ailə Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, uşağı övladlığa götürmə istəyən qohumlara aşağıdakı prosedurlar tətbiq olunmayacaq:

- övladlığa götürmək istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi;
- övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;
- övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;
- övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.

Qohumlara münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 ildən çox olmayan müddətdə övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılması proseduru isə qüvvədə qalır.

# Bir sıra tələblər pozulub

## Televiziyaların yol verdiyi əsas nöqsanlar açıqlanıb



**İl ərzində Azərbaycanda ümumrespublika televiziya və radio kanalları tərəfindən teleradio yayımı haqqında qanunvericiliyin bir sıra tələblərinin pozulması hallarına da yol verilib.**

Bu barədə Milli Televiziya və Radio Şurasının illik hesabatında qeyd olunub.

Hesabata əsasən, yayımçılar əsasən aşağıdakı qanunvericilik aktlarını və onların müddəalarını pozublar:

”Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 35.7-ci maddəsi (reklamın və teleticarətin ümumi həcmi bir saatda 12 dəqiqədən çox ola bilməz);

”Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 35.12-ci maddəsi (Həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamı zamanı ”Dərman vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 16-1-ci maddəsinin tələbləri nəzərə alınmalıdır);

”Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 40.2.1-1-ci maddə (Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində ”Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səslәndirmək);

”Reklam haqqında” Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsi (televiziya və radioda verilən sponsor reklamında bu məlumatların ümumi həcmi hər bir proqramda (verilişdə) 2 dəqiqədən çox olmamalıdır);

”Reklam haqqında” Azərbaycan Respublikası Qanununun 13.7-ci maddəsi (sponsor reklamında ”sponsor” sözünün başqa anlayışlarla əvəz olunmasına yol verilmir);

”Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununun 14.1.4-cü maddəsi (radio, televiziya proqramlarında, uşaqlar üçün nəzərdə tutulan audiovizual əsərlərdə tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirilməsi, həmçinin tütün məmulatlarının və tütün istifadəsi prosesinin nümayiş etdirildiyi əsərlərin, tamaşaların, proqramların efirdə, kabel yayımı vasitəsi ilə açıq yayımlanması);

”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun 4.2.5-ci maddəsi (əxlaqdan kənar leksik (söyüş) məzmunlu informasiya);

Ümumilikdə, aparılmış monitorinqlər göstərmişdir ki, Şura tərəfindən həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində 2020-ci ilin ikinci yarısında televiziya və radio yayımı haqqında qanunvericiliyin tələblərinə yayımçılar tərəfindən riayət olunması istiqamətində müsbət dinamika müşahidə edilib.

**Son günlər mağazalardakı müxtəlif ərzaq məhsullarının qiymətində ciddi artım müşahidə olunur. İnsanlar bir həftə əvvəl aldıqları məhsulun yeni qiymətini görüb heyrətlənməyə bilmirlər.**



# Qiymət artımını yaradan sahibkarlar deyil

## İqtisadçı səbəb kimi Gömrük Komitəsinin fəaliyyətini göstərdi

Vətəndaşların, necə deyərlər, qəpiyə güllə atdıqları bir vaxtda niyə qiymətlər 30-40 faiz bahalaşır?! Məsələn, bir neçə gün əvvələdək 6 manat 45 qəpiyə təklif olunan ”Zalatoy Solniska” qarğıdalı yağının qiyməti birdən-birə üç manat bahalaşıb. Bu isə az qala, yarı qədər, daha dəqiq desək, 47 faiz artımdır.

**İqtisadçı-ekspert Nazim Bəydəmirli ”Şərq”ə açıqlamasında qiymət artımına təsir edən amillərdən danışıb:** ”Müxtəlif ölkələrdən bizə idxal olunan bəzi məhsullar vətənlərində ucuz olsa da, bizdə qeyri-adekvat dərəcədə bahadır. Bu isə süni qiymət artımı deməkdir. Süni qiymət artımının səbəbkarı isə sahibkarlar yox, müvafiq dövlət qurumları, xüsusilə Dövlət Gömrük Komitəsidir. Bu yolla guya büdcənin proqnoz göstəricilərini artırmaq istəyirlər. İkinci bir tərəfdən, müxtəlif ölkə məhsullarının çıxışına qadağa qoyulması və tələblə təklif arasında yaranan ziddiyət də səbəb kimi göstərilə bilər. Lakin məncə, birinci fakt daha ağlabatandır”.

**N.Bəydəmirli, həmçinin çıxış yolunu da göstərdi:** ”Nəqliyyat xərclərinin, kommunal xərclərin bahalaşması da ümumi qiymət artımına təsir edə bilər. Lakin uzaqbaşı, 5 faiz. Daha bu qədər yox. Dediyim kimi, ciddi qiymət artımının yeganə səbəbi Dövlət Gömrük Komitəsinin ləğv edilməsi və onun İqtisadiyyat Nazirliyinə birləşdirilməsidir. Nəticədə vergi-gömrük siyasəti vahid mərkəzdən idarə olunacaq”.

**Kənan**

# Prezidentin xüsusi nümayəndəliklərinin yaradılması effektiv olacaq



## Əlimməmməd Nuriyev: "Bununla bölgələrdə icra hakimiyyəti orqanlarının ləğv olunması da mümkündür"

**Azərbaycan Respublikası Prezidentinin 4 fevral tarixli fərmanına əsasən xüsusi nümayəndəliklər haqqında Əsasnamə təsdiq edilib.**

**Fərmanda deyilir ki, mərkəzi və yerli icra hakimiyyəti orqanları və dövlət qurumları AR Prezidentinin xüsusi nümayəndəliyi təşkil edilmiş müvafiq ərazilərdə fəaliyyətlərini Prezident İlham Əliyevin müvafiq ərazidəki xüsusi nümayəndəsi ilə əlaqələndirilmiş qaydada həyata keçirirlər.**

Yəni mərkəzi və yerli icra hakimiyyəti orqanları və dövlət qurumları Prezidentin təyin etdiyi xüsusi nümayəndəliklə razılaşdırılmamış heç bir addım ata bilməyəcəklər.

Qeyd edək ki, Prezident İlham Əliyev öz çıxışları zamanı bu barədə danışıb. Bildirib ki, həmin nümayəndəliklər ona görə təsis edilib ki, ayrı-ayrı məmurların özbaşınalığına, mənimsəmələrinə, qanunsuz əməllərinə yol verilməsin.

Məlumdur ki, ölkəmizdə vətəndaşların yerli icra hakimiyyəti strukturlarından çoxsaylı narazılıqlarına rast gəlinir. Xüsusilə hələ ötən il icra hakimiyyəti orqanlarında baş verən neqativ hallar cəmiyyətə açıqlandı və buna görə həbslər baş verdi.

**Məsələ ilə bağlı Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əlimməmməd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, bununla bölgələrdə icra hakimiyyətlərinin ləğv olunması da mümkündür:** "Mövcud idarəetmə təchizatı ilə onu həyata keçirmək yetərli qədər mümkün görünmür. Həmin ərazilərlə bağlı xüsusi nümayəndəliklər təyin edildikcə, ola bilsin ki, onların yerli icra hakimiyyətlərinin ləğvi də baş versin. Düşünürəm ki, bununla bağlı müəyyən təhlillər həyata keçirilir. Çünki yeni idarəetmə aləti yaradıldıqda paralel strukturların ləğvi də gündəmə gəlir. Ona görə ki, hazırkı şəraitdə biz resurslara qənaət etməliyik, resurslardan səmərəli istifadə etməliyik. Bütün bunlar idarəetmə xərclərinin azaldılmasını zəruri edir. Bir təsisat yaradıb, digər paralel təsisatları saxlamaq idarəetmə xərclərini artıra bilər. Bu baxımdan düşünürəm ki, yaxın gələcəkdə bu istiqamətdə də addımlar olacaq. Hesab edirəm ki, bu idarəetmə sistemi Azərbaycanda yaxşı idarəetmə nümunələrindən biri ola bilər".

**Ə.Nuriyev bildirdi ki, bu cür təsisatların Prezident Administrasiyasına, Prezidentə birbaşa çıxışlarının olması idarəetmədə yeni alqoritmin formalaşmasına gətirib çıxaracaq:** "Ümumiyyətlə, hesab edirəm ki, Prezidentlə birbaşa əlaqələr quran təsisatlar olmalıdır. Hər hansı aralıq əlaqələr idarəetmənin effektliyini azaldır. Qarşıda böyük hədəflər var - məlumdur ki, 2030-cu ilə qədər milli iqtisadiyyatın prioritetləri müəyyən edilib - orda 5 əsas prioritet nəzərdə tutulub ki, bunlar da idarəetmənin hansı qaydada qurulacağından asılıdır.

Faktiki olaraq hazırkı şəraitdə işğaldan azad edilmiş bölgələr üzrə yaradılması nəzərdə tutulan bu təsisat demək olar ki, mərkəzi icra hakimiyyətinin yerlərdə olan idarələrinə aid olan bütün məsələlər üzrə cavabdeh olan təsisatdır. Burada ən mühüm məsələ qərarların qəbul edilməsində çevikliyin təmin edilməsidir. Quruculuq, sosial və bütün məsələlərlə bağlı sözügedən təsisatın qərar qəbul etmək, müvafiq qurumlar qarşısında məsələ qaldırmaq səlahiyyəti var. Səlahiyyətli nümayəndə həm də ərazi üzrə təyin olunur. Həmin ərazilərin hüdudları da cənab prezident tərəfindən müəyyənləşdirilib. İndiki halda Şuşa şəhəri ilə bağlı bütün məsələlər səlahiyyətli nümayəndəliyin razılığı, nəzarəti altında həyata keçiriləcək".

**Ağarza Elçinoğlu**

## "Mövcud sabitliyi və qələbə əhval-ruhiyyəsini pozmağa cəhdlər edilir"

### Millət vəkili: "Hər birimiz ayıq-sayıq olmalı, təxribata uymamalı, dövlətimizin, ölkə başçısının yanında durmalıyıq"



**"Qarabağın bütün əraziləri Azərbaycan torpağıdır". Bunu "Şərq"ə açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.** Deputat bildirib ki, zamanla bütün rayonlarımız bizim nəzarətimizdə olacaq: "Beynəlxalq hüquq və bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Düşmən üzərində böyük qələbə qazanmışıq və Ermənistanı acı məğlubiyyətə uğratmışıq. Bir çox rayonlarımız işğaldan azad olunub və üçtərəfli anlaşma imzalanıb. Proses davam etməkdədir. İndi əsas qayəmiz işğaldan azad edilmiş torpaqlarımızın minalardan təmizlənməsi və orada quruculuq, təmir-bərpa işlərinin aparılmasıdır. Qarşıda görüləsi xeyli iş var. Paralel olaraq Ermənistanın işğal etdiyi ərazilərimizdə illərlə törətdiyi vandalizm hərəkətlərini, dağıntıları da aktlaşdırılmalı, düşmənə təzminat davası açılmalıdır. Bütün məsələlər yoluna qoyulacaq. Bir az səbrli və təmkinli olaq, fikrimizi yayındırmayaq. Növbəti mərhələlərdə digər məsələlərə də baxılacaq və müvafiq qərar veriləcək. Bu müddət ərzində əsas məqsədimizdən yayınmamalıyıq".

**Parlament üzvü vurğulayıb ki, mövcud sabitliyi və qələbə əhval-ruhiyyəsini pozmağa cəhdlər edilir:** "Birliyə, həmrəyliyə xələl gətirən hərəkətlərə rəvac verməməliyik. Biz qalib dövlətin, zəfər çalmış bir millətin fərdləriyik. Tariximizin ən şanlı, şərəfli, qürurlu günlərini yaşayırıq. Qələbəyə kölgə salmamalı, dövləti dəstəkləməliyik. Unutmayaq ki, ermənilər də ciddi-cəhdlə Azərbaycan xalqının qələbə sevinci yaşamamasına çalışırlar. Ona görə də hər birimiz ayıq-sayıq olmalı, təxribata uymamalı, dövlətimizin, ölkə başçısının yanında durmalıyıq".

**İsmayıl**

## Azərbaycanda tablo dəyişir

### 44 nəfər yoluxub, 3 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 44 yeni yoluxma faktı qeydə alınıb, 102 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 231 198 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 225 348 nəfər müalicə olunaraq sağalıb, 3 161 nəfər vəfat edib, aktiv xəstə sayı 2 689 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 567, hazırkı dövrədək isə 2 45 66 50 test aparılıb.*

## Məhərrəm İncə CHP-dən istefa verib



**Məhərrəm İncə Cümhuriyyət Xalq Partiyasından (CHP) istefa verib.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə türkiyəli siyasətçi özü bildirib.

O, istefasının səbəblərinin həftə içi yazılı şəkildə açıqlayacağını bəyan edib.

*Qeyd edək ki, sabiq millət vəkili M. İncə 2018-ci ildə prezidentliyə namizəd olub.*

# "Naxçıvanla quru sərhəd açılacaq"

## Asim Mollazadə: "Yaradılan işçi qrup müvafiq məsələləri müzakirə etməkdədir"

Ermənistan hərbi-siyasi hakimiyyətinin son vaxtlardakı ritorikasından baş açmaq mümkün deyil. Bir tərəfdən konstruktiv, digər tərəfdən isə destruktiv mövqe sərgiləyirlər. Ola bilsin, heç özləri də nə etdiklərini bilmirlər. Amma məsələ ondan ibarətdir ki, bu cür qeyri-adekvat davranışlar çoxlarında sual yaradır - rəsmi İrəvan nə istəyir:

*Hərb, yoxsa sülh? Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə düşmənin son addımları barədə "Şərq"in suallarını cavablandırıb:*

**- Ermənilər artıq Kərkini boşaldırlar. Sizcə, işğal altındakı torpaqlarımızın tamam boşaldılmasına başlanılıbmı?**

- Onların başqa yolu yoxdur. Düşmən mütləq bəyanatın şərtlərinə əməl etməlidir. Əks halda özünü böyük təhdid altında qoymuş olar. Çünki sabitliyə görə həm də Rusiya məsuliyyət daşıyır. Yəni Ermənistanın hansısa "şıltaqlığı"nı Kreml də yaxşı qarşılamaya bilər. Deməli, Ermənistan üçün yeganə çıxış yolu, nəhayət, qonşuluq münasibətlərinə başlamaqdır.



### "Qazaxın kəndlərinin də yaxın vaxtlarda qaytarılacağını düşünürəm"

**- Qazaxın yeddi kəndinin taleyi ilə bağlı nə düşünürsünüz?**

- Sazişdə bu məsələnin həlli də nəzərdə tutulub. Kəndlərimizin yaxın vaxtlarda qaytarılacağını düşünürəm.

**- Bəs Naxçıvanla quru sərhədin açılması?**

- Bu məsələ də realdır. Yaradılan işçi qrup müvafiq məsələləri müzakirə etməkdədir. Həm Azərbaycan, həm Türkiyə, həm də Rusiya Naxçıvanla quru sərhədin açılmasını istəyir. Deməli, məsələ müsbət nəticəsini tapacaq.

**- Qazaxda təxribatın törədilməsi Kərkinin qaytarılması addımına nə qədər adekvatdır?**

- Düşmən ölkədə xaotik vəziyyət hökm sürür. Orada müəyyən revanşist qüvvələr var. Ola bilsin, təxribatı törədən hakim qüvvə yox, məhz qisasçılardır.

**- Deməli, növbəti müharibə də istisna deyil?**

- Düzdür, yeni savaşın başlanmasında maraqlı qüvvələr var. Amma bu qüvvələr çox deyil. Revanşist qüvvələr özlərinə lazımi qədər tərəfdar tapa bilmirlər. Üstəgəl, Ermənistanın yeni müharibəyə başlamaq üçün taqəti qalmayıb.

**Kənan Novruzov**

# Reallıqlarla barışıblar

## Qarabağda vəziyyət sürətlə rəsmi Bakının xeyrinə dəyişir

Erməni mediasının yazdığına görə, bir neçə gün əvvəl keçmiş fransalı merin rəhbərliyi ilə bir qrup əcnəbi jurnalist və ictimai xadim Qarabağa getmək məqsədi ilə Ermənistana səfər ediblər. Yerevanda rəsmi şəkildə akkreditə olunan fransızlar Xankəndiyə yola düşüblər. Lakin Rusiya sülhməramlıları onları Laçın dəhlizində saxlayıb və Azərbaycana buraxmayıblar.





Jurnalistlər akkreditasiyalarını göstərib, israrla Qarabağa getmək istədiklərini söyləsələr də, sülhməramlılar bunun mümkün olmadığını, onların Azərbaycan ərazisinə getdiklərini və Ermənistandakı akkreditasiyanın etibarsız olduğunu bildiriblər. Vurğulayıblar ki, əgər getmək istəyirlərsə, mütləq Azərbaycanda akkreditasiyadan keçməlidirlər. Çarəsiz vəziyyətdə qalan nümayəndə heyəti Yerevana qayıdıb və Fransa səfirinə məlumat verib. Fransa səfiri Conatan Lakot isə qeyri-rəsmi şəkildə Nikol Paşinyanla əlaqə yaradaraq nə baş verdiyini anlamağa çalışıb. Paşinyan yanvarın 11-də Moskvada beynəlxalq mətbuat nümayəndələrinin Azərbaycanda akkreditasiyadan keçməsi barədə razılıq əldə olunduğunu bildirib. Baş nazir ümumiyyətlə səfirə bu məsələyə qarışmamağın daha yaxşı olacağını söyləyib.

Vəzifəyə başladıqları gündən etibarən Rusiya sülhməramlıları ilə bağlı ardıcıl xoşa gəlməyən xəbərlər gəlsə də, göründüyü kimi, artıq sülhməramlılar da bölgədəki mövcud reallıqla barışmaq məcburiyyətində qalıblar. Dövlət başçısı İlham Əliyevin Qarabağa qanunsuz səfərlərlə bağlı Yerevana və rus sülhməramlılarına sərt xəbərdarlığından, Türkiyə-Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlamasından sonra hadisələr rəsmi Bakının xeyrinə sürətlə dəyişməkdədir. Azərbaycan ikinci cəbhəni diplomatiya platformasında açıb və zamanla öz maraqlarını təmin edir. Şübhə yox ki, yaxın günlərdə Xankəndinə, Xocalıya və Xocavəndə tam nəzarəti bərpa edəcəyik.

### "Rusiya sülhməramlılarının fəaliyyətinin ölkə ictimaiyyətinin nəzarətində olması öz effektini verir"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə bildirib ki, Rusiya sülhməramlılarının fəaliyyətinin ölkə ictimaiyyətinin nəzarətində olması öz effektini verir.** Partiya rəhbəri xatırladıb ki, bir müddət əvvəl sülhməramlılar tərəfindən yayılmış qondarma "xəritə" məhz ciddi etiraz səbəbindən dərhal dəyişdirildi: "Ermənistan xarici işlər nazirinin Azərbaycan ərazilərinə qanunsuz səfərinə Prezident İlham Əliyev sərt reaksiya verdi və Yerevana xəbərdarlıq etdi. Dövlət başçısı vurğuladı ki, ilk xəbərdarlıq XİN səviyyəsindədir, amma sonrakı addımımız başqa tərzdə olacaq. Yəni Prezident hərbi ritorika ilə ermənilərə cavab verdi. Əlbəttə, bu, Qarabağa qanunsuz səfərlərlə bağlı çox ciddi mövqe və mesaj idi. Azərbaycan ictimaiyyətinin də münasibəti ölkə rəhbərinin mövqeyi ilə eynidir. Həmişə bildirmişəm ki, Prezident milli iradəni ifadə edən bir personadır. Biz 44 günlük müharibədə və sonrakı proseslərdə gördük ki, cənab Prezident hər mənada istiqlalçı kəsimin lideri kimi çıxış edir. Dövlət başçısı müstəqillik və suverenlik kimi həssas məsələlərdə daim xalqın arzuladığı addımları atır. Bu çox mühüm məsələdir".

*F.Quliyev vurğulayıb ki, ölkə rəhbərinin qətiyyətli mövqeyini qarşı tərəf də yaxşı görür və düzgün dəyərləndirir:* "Azərbaycan cəmiyyətində açıq narahatlıq var idi ki, sülhməramlıların sonrakı davranışı necə olacaq. Düzdür, hər zaman deyirdik ki, narahatlığa əsas yoxdur, Türkiyə hərbçiləri bölgəyə gəldikdən sonra vəziyyət dəyişəcək və sülhməramlıların fəaliyyətinə nəzarət güclənəcək. Rus sülhməramlıların Fransa təmsilçilərini torpaqlarımıza buraxmaması və geri qaytarması mövqelərimizlə üst-üstə düşür. Doğrudur, sülhməramlıların başçısı, general Rüstəm Muradovun ifadələrində belə bir fikir var idi ki, "Laçın dəhlizi ilə bölgəyə sadəcə ruslar və ermənilər gedə bilərlər". Muradov diplomat deyil, hərbçidir, ola bilsin, özünü tam ifadə edə bilməyib. Hər halda Baş nazir Nikol Paşinyanın və rus generalın ümumən dedikləri kimi Qarabağa səfər edən hər şəxs mütləq rəsmi Bakıdan icazə almalıdır. Qarabağda doğulan ermənilərin Laçın dəhlizindən keçidinə şərait yaradılır. Sərbəst şəkildə Ermənistandakı qohum-əqrəbalarının yanına gedib-gələ bilirlər. Ermənistan doğumlu erməninin, yaxud Rusiya vətəndaşının Qarabağa gəlişi isə hökumətimizin rəsmi icazəsi ilə mümkündür. Bu həqiqəti general Muradov da dərk etməlidir. Paşinyanın etirafları göstərir ki, baş nazir daha praqmatik siyasət yeritməkdə maraqlıdır. Həm də onun ifadələri dolayı yolla Azərbaycanın ərazi bütövlününü tanınması deməkdir. Qarabağda vəziyyət durulur. Durum tədricən sabitləşəndən sonra ermənilərin yaşadığı Azərbaycan ərazilərində birmənalı şəkildə rəsmi Bakının mülki idarəetmə sistemi tətbiq olunacaq. Hər kəs bununla razılaşmalıdır".

### "Paşinyanın və rus generalın ümumən dedikləri kimi Qarabağa səfər edən hər şəxs mütləq rəsmi Bakıdan icazə almalıdır"

**Siyasi analitik Turab Rzayev də "Şərq"ə bildirib ki, Fransadan gələn heyətin Dağlıq Qarabağa buraxılmaması çox müsbət haldır:** "Eyni zamanda onlara icazəni rəsmi Bakıdan almalı olduqları barədə xəbərdarlıq edilməsi də uğurlu addımdır. Lakin burada başqa nüanslar da ola bilər. Bilmirik ki, Azərbaycan cəmiyyətinə xoş gəlsin deyə belə deyilib, yoxsa fransızlar Qarabağda hansısa bəyanat yaydıqdan sonra ara gərginləşər deyə bu addım atılıb. Yaxud da Rusiyanın özü Fransa və Avropa ölkələrinin onun daxili işi saydığı Qafqaz missiyasına qarışmasından narahat olduğu üçün belə açıqlama verilib. Hər bir nüans ola bilər. Lakin bu olanlar istənilən halda müsbət addımdır".

**T.Rzayev vurğulayıb ki, Fransanın qeyri-adekvat addımlar atması heç də xoş deyil:** "Bu nəinki Azərbaycanla Fransanın, eyni zamanda Ermənsitanla Azərbaycan münasibətlərini də gərginləşdirir. Hər dəfə belə hadisədən sonra hər iki cəmiyyətdə gərginlik yaranır, xalqlar bir-biri ilə birgə yaşamaq prinsipinə uyğunlaşa bilmirlər. Bunlar provakativ addımlardır, gərək Fransa belə addımlardan çəkinsin. Son günlər bir çox dünya ölkələri daha adekvat davranmağa başlayıblar. Fransa bölgəyə sülh və əmin-amanlığın gəlməsinə mane olur. Hansı ki, bu bölgə Avropa İttifaqı, ümumiyyətlə, Qərb üçün çox əhəmiyyətlidir. Avropa Orta Asiya bazarına açılmaq və yaxud Orta Asiyadan enerji resurslarını Avropaya çıxarmaq üçün bölgədən istifadə edə bilər. Ona görə də Ermənistan-Azərbaycan arasında strateji kommunikasiyaların açıq olması çox önəmlidir".

*Ekspertin qənaətincə, Ermənistan-Azərbaycan kommunikasiya xətlərinin açıq olması hər iki xalq üçün əhəmiyyətlidir:* "Fransa təktərəfli addımları ilə ölkələr arasındakı münasibətləri gərginləşdirir. Ondansa rahat şəkildə gəlsinlər, Azərbaycandan icazə alsınlar və qıcıq yaratmasınlar. Sonra da gedib Xankəndində sülhdən, dostluqdan, qardaşlıq və barışdan danışsınlar, müharibədən yox. Bu, çox önəmli faktordur. Fransanın hərəkəti sülhə xidmət etmir. Almaniyaya, İtaliyaya, Böyük Britaniyaya baxıb, örnək götürsünlər. Bu ölkələr sülhə çalışırlar. Rusiya belə Fransadan daha adekvat davranır. Fikrimcə, artıq Fransanın "papağını" qarşısına qoyub, düşünməsinə ehtiyac var. Çünki ərazilərimizi tam bərpa etdikdən sonra ancaq dost və adekvat ölkələrin tenderlərdə iştirakına icazə verəcəyik".



**İsmayıl Qocayev,**
**Yeganə Bayramova**

# Azərbaycanda hiss olunan zəlzələlər qorxulu deyil




## Zonaların aktivliyindən asılı olaraq hər gün xırda təkanlar olur

**Ölkə ərazisində 20-dən artıq yeraltı təkan qeydə alınıb. AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli**

bildirib ki, Azərbaycanda sutka ərzində zonaların aktivliyindən asılı olaraq 16-20, 30-40 xırda təkan olur. Lakin onların heç biri qorxulu deyil. Bunlar arasında hiss olunan və olunmayanlar olur: Zəlzələnin hiss olunması dərinliyindən də asılıdır. Bu gün 20-dən çox təkan olub. Bunlar zəif təkanlardır. Cihazlar tərəfindən qeydə alınıb".

**Yeraltı təkanların hansı zonada qeydə alınmasına gəlincə, Respublika Seysmoloji Xidmət Mərkəzinin informasiya şöbəsinin müdiri Vüsalə Rafiqqızı "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu yeraltı təkanlar əsasən Hacıqabul və Şamaxıda qeydə alınıb:**

- RSXM direktorunun da bildirdiyi kimi, bunlar hiss olunmayan yeraltı təkanlardır.

Hacıqabulda 1-ci təkan 4 bal gücündə idi. Şamaxıda 3,7-3,4 bal gücündə olub. Şamaxı, İsmayıllı seysmikliyin aktiv olduğu bölgələrdir. O cümlədən Bakı və Xəzər dənizi də. Amma bunlar xırda təkanlardır və təhlükəli deyil. Yeraltı təkanların maqnitudası yer səthinə yaxın olub. Ümumiyyətlə, Cənubi Qafqaz, o cümlədən də Azərbaycan seysmoaktiv zona olduğu üçün hər gün bəlkə də 40-a yaxın belə yeraltı təkanlar olur.

**V.Rafiqqızı Qazaxda, Tovuzda hiss edilən təkanların Ermənistan ərazisində baş vermiş zəlzələnin təsiri olduğunu dedi:**

- Ermənistan ərazisində fevralın 5-də Rixter şkalası ilə 7 bala yaxın yeraltı təkan oldu. Bu da Qazax, Tovuz, Gədəbəy və Gəncədə hiss edildi.

Qeyd edək ki, RSXM-nin direktoru Q. Yetirmişli yerin daxilinin həmişə hərəkətdə olduğunu, litosferdə böyük plitələrin hərəkətli, plitələrdaxili blokların da həm horizontal, həm vertikal hərəkətlərinin olduğunu deyib. Azərbaycanda baş verən bu zəlzələlər hamısı bloklardaxilidir, bloklar parçalanır, onların hərəkəti nəticəsində bu hadisələr baş verir. Bir blokun digər blokdan sıxılması və ya genişlənməsi nəticəsində kritik həddə çatır və laylarda böyük qırılma boyu parçalanması gedir. Burada güclü parçalanma zamanı enerji ayrılır və silkələnmə dalğa formasında yer üzərində öz təzahürünü göstərir.

**Məlahət**





# Kürdəmirdə şəhid tankçının barelyefinin açılışı olub

**Kürdəmirdə şəhid baş leytenant, tank komandiri Fərrux Baxış oğlu Hüseynovun evinin önündə barelyefinin açılışı olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, açılış mərasimində torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxışlarda şəhid zabitin keçdiyi döyüş yolundan, erməni işğalçılarına qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışılıb.

Vurğulanıb ki, Fərrux Hüseynov Kürdəmirdə doğulub boya-başa çatıb. Vətən sevgisi gənc yaşlarından onu hərbçi olmağa, Silahlı Qüvvələrimizin sıralarında qulluq etməyə ruhlandırıb. Ötən il sentyabırın 27-də başlanan Vətən müharibəsində tankçı kimi döyüşlərə atılıb. Füzuli istiqamətində gedən döyüşlərdə iki dəfə yaralansa da, mübarizəsini davam etdirib. Noyabrın 9-da Xocavənd istiqamətində gedən ağır döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv edib, özü isə qəhrəmancasına şəhid olub.

Şəhid zabitimiz ölümündən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən medallarla təltif edilib.

# Sabir Rüstəmxanlı vətəndaşlara səsləndi

## Doğma torpaqlar üçün darıxanlar səbirli olmalıdır



### "Əvvəlcə o ərazilər minalardan təmizlənməlidir"



İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənmə işi hələ başa çatmayıb. Dövlət qurumları mülki şəxslərə dəfələrlə xəbərdarlıq edib. Buna baxmayaraq, insanlar icazəsiz və ya qanunsuz səfər edərək həyatlarını təhlükəyə atırlar. Bu barədə növbəti məlumatı Cəbrayıl Rayon Prokurorluğu yayıb.

Verilən məlumata görə, fevralın 7-də İlqar Əhmədova məxsus "VAZ 2106" markalı 99 NH 623 dövlət qeydiyyat nişanlı avtomobilin Cəbrayıl rayonunun işğaldan azad edilmiş Nüzgar kəndi ərazisində tank əleyhinə minaya düşərək partlaması müəyyən olunub.

Əvvəlcə mərhumun və onunla birgə daha iki şəxsin itkin düşməsi ilə bağlı prokurorluğa müraciət daxil olub. Prokurorluq əməkdaşlarının hadisə yerinə baxışı zamanı həmin ərazidə itkin düşənlərdən birinin meyiti aşkar edilib. Təəssüf ki, işğaldan azad olunan rayonlara vətəndaşlarımızın qanunsuz səfərləri bir neçə dəfə müşahidə edilib.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Xalq şairi Sabir Rüstəmxanlı "Şərq"ə bildirib ki, səbirli olmaq lazımdır:** "Əhali öz doğma torpaqları üçün darıxıb. Müdafiə Nazirliyinin çəkiliş qrupu kəndlərin dağıdılmış vəziyyətini insanların diqqətinə çatdırır. İnsanlar təsəlli etməlidirlər ki, həmin ərazilər ermənilərin işğalından azad edilib. Səbirlə gözləməlidirlər, minatəmizləmə prosesi tamamilə başa çatsın. Nəzərə almalıdırlar ki, qanunsuz və ya icazəsiz səfərlər ölümlərə, bəzən də şikəstliyə səbəb olur".

**Aygün Tahirqızı**

Türkiyəyə sanksiya tətbiq etmək, qardaş ölkənin iqtisadiyyatına ziyan vurmaq məqsədi ilə Ermənistanda dövlət səviyyəsində türk mallarının ölkəyə gətirilməsi qadağan olunub. Həmçinin, dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərə türk məhsullarından və türklərə məxsus şirkətlərin, iaşə obyektlərinin xidmətindən istifadə etməmək tövsiyəsi edilib.




# Ermənilərin tək çörək qapısı Türkiyədir

## Onların türk mallarına "qadağalar" qoyması intihara bərabərdir

Lakin mediada və sosial şəbəkədə yayılan çoxsaylı faktlar göstərir ki, "türk qadağaları" ölkə daxilində bu və ya digər formada işləsə də, xaricdəki ermənilər Yerevanın "məsləhətlərini" veclərinə almırlar. Demək olar ki, xarici ölkələrdə yaşayan ermənilərin hamısı könüllü şəkildə hökumətin "qadağaları"nı pozurlar. Maraqlısı odur ki, rəsmi Yerevanın boykot kampaniyasına bu absurd qərarda imzası olan rəsmilər də qoşulmurlar. Bu günlərdə məlum olub ki, Baş nazir Nikol Paşinyan özü də xaricə səfər zamanı türk malları və xidmətlərinə daha çox üstünlük verir. Məlumdur ki, baş nazir Avrasiya İqtisadi İttifaqının Hökumətlərarası Şurasının iclasında iştirak etmək üçün Qazaxıstanın Almatı şəhərinə gedib. Paşinyan Qazaxıstanın ən böyük şəhərində gecələmək üçün məhz türk iş adamı Fettah Taminceyə məxsus "Rixos" otellər şəbəkəsinin beşulduzlu mehmanxanasını seçib.

**Əməl olunmayan "qadağalarla" bağlı "Şərq"ə danışan siyasi şərhçi Azər Qasımov bildirib ki, dövlət büdcəsi Türkiyənin bir şəhərinin büdcəsi qədər olan Ermənistanın türk mallarına "qadağa" qoymasına istehza ilə yanaşmamaq olmur.** Analitik vurğulayıb ki, Türkiyə ilə heç bir rəsmi iqtisadi əlaqələri olmayan Ermənistanın "qadağası" qeyri-ciddi addımdır: "Xüsusilə pandemiya və müharibədən sonrakı ağır və kritik dövrdə belə bir qərarın verilməsi ağıldan və məntiqdən çox uzaqdır. Özlərini gülünc vəziyyətə salsalar da, görünən odur ki, Ermənistan rəsmiləri xalqın əsəbini sakitləşdirmək və ümumi düşmənə qarşı "birlik" yaratmaq məqsədilə uydurma qərarlar qəbul ediblər. Ermənistan "qadağa" qoyduğu məhsulları əslində Gürcüstanda fəaliyyət göstərən türk firmalarından alır. Bu firmalar isə Gürcüstanın tələbatını nəzərə alaraq ora məhsul gətirirlər. Yəni Türkiyənin burada heç bir iqtisadi itkisi yoxdur. Ermənilərin, hətta hökumət adamlarının "tövsiyələrə" məhəl qoymaması, öz "qadağalarına" əməl etməməsi göstərir ki, bu, siyasi qərardır. Ermənilərin az qala tək çörək qapısı olan Türkiyəyə "sanksiya" qoymaq fikrinə düşməsi intihardır".

*Ekspert xatırladıb ki, Türkiyədə 80-100 min arası erməni işləyir və çörək pulu qazanır:* "Ermənilərin başlatdığı "boykot kampaniyası" xaricdə yaşayan erməni diasporasının Paşinyan hökumətindən yardımlarını kəsməməsi üçün məqsədyönlü ortaya atılıb. Media və sosial şəbəkələrdə "türk mallarına qadağa" çağırışları ilə görüntü yaradır, imitasiya edirlər. Ancaq erməni rəhbərliyi də, xalqı da fərqindədir ki, möhtac olduqları türk məhsullarından imtina mümkünsüzdür".

**İsmayıl Qocayev**



## Daha bir qazimiz eşitmə aparatı ilə təmin olundu

**"YAŞAT" Fondu yaralanan şəxslərin müalicə xərclərinin qarşılanması və şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi üzrə işləri davam etdirir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyala üzrə Dövlət Agentliyindən verilən məlumata görə, qazimiz Qurban Ələkbərli "YAŞAT" Fondu tərəfindən müasir eşitmə aparatı ilə təmin edilib.

Şəhidimiz Kamran Qasımovun anası Naila Qasımovanın, şəhidimiz Teymur Həsənovun atası Mahal Həsənovun əməliyyat xərcləri, şəhidimiz Valeh Bədəlovun atası Vahid Bədəlovun isə müalicə xərcləri Fond tərəfindən qarşılanıb.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

## Bakıda Hərbi Qənimətlər Parkı yaradılır



**Bakıda Hərbi Qənimətlər Parkı yaradılır.**

Park Xətai rayonu ərazisində yerləşir. Ərazidə tikinti işləri davam etdirilir.

Vətən müharibəsində Azərbaycan Ordusunun darmadağın etdiyi düşmənə aid hərbi texnikaların bir qismi park ərazisində yerləşdirilib.

Həmin hərbi texnikaların bir qismi ötən il dekabrın 10-da keçirilən Zəfər paradında da nümayiş olunmuşdu.

## Türkiyə azərbaycanlı şəhid övladlarına təhsil təqaüdü ayıracaq



**Türkiyənin Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Ermənistanla döyüş əməliyyatların nəticəsində şəhid olmuş azərbaycanlıların övladları üçün özəl təqaüdlər təklif edib.**

Trend-in məlumatına görə, bu barədə Türkiyə mətbuatı yazır.

İdarənin rəhbəri Abdulla Eren bildirib ki, Türkiyə şəhid övladlarına təhsil vermək istəyir. Bunun üçün Xaricdəki Türklərlə və Yaxın İcmalarla İş İdarəsi Türkiyədə araşdırma və dil tədrisi məqsədilə bu kateqoriyadan olan tələbə və aspirantlara xüsusi imkanlar təqdim edəcək: "Bütün sahələrdə olduğu kimi Türkiyə təhsil sahəsində də azərbaycanlı qardaşlarını dəstəkləyir".

# "Qarabağda Rusiya özbaşınalığının hökm sürməsi heç kəsə sirr deyil"

## Həşim Səhrablı: "Ərazidəki sülhməramlı missiyaya uyğun olmayan ağır zirehli texnikalar geri çəkilməlidir"



**Qarabağdakı rus sülhməramlılarının fəaliyyəti artıq hər kəsə məlumdur. Ayrı-ayrı məqamlar həmin hərbçilərin tərəf tutduğunu göstərir. Əvvəlcə Ermənistan Baş naziri Nikol Paşinyanın "münaqişə hələ bitməyib" bəyanatı, ardınca isə İrandan Ənzəli limanı vasitəsilə işğalçı ölkəyə silahların daşınması barədə məlumat haqlı şübhələri daha da artırır. Doğrudanmı, rus sülhməramlıları Ermənistan hərbi-siyasi hakimiyyəti üçün güvənc yerinə çevrilib.**

**Bu barədə "Şərq"ə danışan hərbi-siyasi ekspert Həşim Səhrablının fikrincə, rus hərbçilərinin Qarabağdakı bu fəaliyyəti hüquqi cəhətdən absurddur:** "Qarabağda sülhməramlı missiya indi, yəni torpağın sahibi ölkə anti-terror əməliyyatına başladığı zaman deyil, torpağın sahibi olmayan, işğalçılıq siyasəti həyata keçirən Ermənistan terror törədəndə təşkil edilməli idi. Bir şəxs belə insan hüquqları prizmasını qabardıb, bölgədə yaşayan erməniləri qorumaq və s. kimi absurd düşüncələrə qapılmasın. Bölgədəki ermənilər problemi niyə absurddur? Birincisi, bölgədə erməni etnik yaşamı son yüzillərin məhsuludur və bu, birbaşa kənar qüvvələrin diktəsi ilə həyata keçirilib. Onlar bölgənin sahibi etnik deyil, bölgədə yaşayan və ölkənin vətəndaşı statusu daşıyan fərdlərdirlər.

Necə ki, ermənilər həmin son yüzilliklərdə, ABŞ, Rusiya, Fransa kimi ölkələrdə də vətəndaş olaraq yaşamağa başlayıb. İkincisi, Qarabağda ermənilərin yaşaması heç də onların istədiyi zaman dövlət təhlükəsizliyi əleyhinə cinayətlər edib, separatizm yaratmaları anlamına gəlmir. Hələ ki, bu separatizmi aşkaranə şəkildə dəstəkləmək, Fransa, Rusiya və s. kimi ölkələrə heç yaraşmır.

Azərbaycan Prezidenti İlham Əliyev və digər rəsmi şəxslərin də dediyi kimi, əgər ermənilər üçün status məsələsinə bu qədər istəklisiniz, erməni xalqını düşünürsünüzsə, o zaman öz şəhərlərinizdə yüzillərdir, onillərdir kompakt halda yaşayan ermənilərə status verin, məsələ də bitsin. Buna Fransa razı oldu? Bəlkə, Rusiya razı olacaq? Xatırladım ki, hər iki ölkə öz tərkibində tarixi dövlətçiliyi olmuş xalqları işğal edərək imperiya qurublar. Hələ də o imperiyalarını demokratik bəzək verərək qoruyurlar".

**H.Səhrabı məsələnin tarixi köklərinə də toxunub:** "Əsas mətləbə gəlincə, oradan başlamaq olar ki, Qarabağ həm tarixən, həm hüquqən Azərbaycanın ayrılmaz hissəsi və əsas iqtisadi-siyasi regionudur. Beynəlxaq hüquq müstəvisində də ərazi Azərbaycanın suveren tərkib hissəsi kimi qəbul olunub. Həmçinin Zəngəzur və Göyçə mahallarının hüququ sahibliyi məsələsini qabardaraq, burada Azərbaycanın hüquqlarını bərpa etmək olar. Belə ki, həm Azərbaycan, həm də Ermənistan dövlətləri 1918-ci ildə müstəqilliyini elan etmiş Cümhuriyyətlərin varisidir. 1918-ci il Paris sülh müqaviləsi və digər beynəlxalq sənədlərdə isə Zəngəzur və Göyçə birbaşa Azərbaycanın suveren ərazi bütövlüyü içində tamamlanıb.

Ərazi iddiaları məsələsi ilə bərabər, Rusiyanın bölgədəki "artıqlığı" da müzakirə olunmalıdır. Çünki Rusiya özü imperiyadır və bunu Federativ Respublika adı ilə pərdələməkdədir. Dünyanın bütün ölkələrinə bəllidir ki, Rusiyanı formalaşdıran bütün federativ respublikaların çoxu işğal və silah gücünə saxlanılır.

Məsələn, götürək elə 1918-ci il, 11 Mayda müstəqilliyini elan etmiş Şimali Qafqaz, yəni Dağlılar Respublikası. Bu Respublika məhz ruslar tərəfindən istila edilərək Rusiyanın hazırkı ərazi vahidinə qatılıb. Həmin Respublikanı formalaşdıran xalqlardan biri olan Çeçenistanın 1990-cı illərdəki müstəqillik mübarizəsi və çeçen xalqının yaşadığı zülmləri bilmək kifayət edir ki, Rusiyanın insan hüquqları və xalqların müqəddəratı məsələsinə hansı dərəcədə radikal olduğunu görək. Qeyd edim ki, həmin Respublikanın 1919-cu il qərarında nəzərdə tuulub ki, Dağıstan Azərbaycan Xalq Cumhuriyyətinin tərkibinə verilir.

Bu barədə qərarı 16 Aprel tarixində Şimali Qafqaz Respublikasının rəhbəri Pşemaxo Kosyev imzalayıb. Qərar 18 May tarixinədək qüvvədə olub. Yalnız Denikin işğalı nəticəsində Şimali Qafqaz Respublikasının müstəqilliyinə son verilib.

Bəli, Rusiya belə işğallarla qurulmuş bir dövlətdir. Rusiya hazırda Qarabağda sülhməramlı missiya həyata keçirir. Təzad ondan ibarətdir ki, öz daxilində xalqlara, insan hüquqlarına hörmət edə bilməyən bir diktator ölkəsi, Qarabağ kimi fərqli iki ölkə arasındakı münaqişədə sülh yarada bilərmi? Yoxsa sülh adı altında yenidən qan axıtmaq planları işlənirmi?".

## "Ruslar Araiki Azərbaycan qununlarına təslim etsin"

**Eskpert, həmçinin rus sülhməramlılarının öz səlahiyyətlərindən kənara çıxması ilə bağlı faktları sadalayıb:** "Belə planların hazırlandığını Rusiyanın Qarabağda terror birləşməsinin başçısı, separatçı lider və özünü "müstəqil ölkə prezidenti" kimi qələmə verən Araik Arutyunyanı israrla mübahisə tərəfi kimi masada qarşılamaq və hələ də Azərbaycana təhvil verməməsi kimi hallarla əsaslandırmaq mümkündür. Digər tərəfdən, Rusiyaya məxsus 366-cı motoatıcı alayın Azərbaycana qarşı mümkün addımlar atdığı da məlumdur.

Bu elə bir haldır ki, özlüyündə bir sübut mahiyyəti daşıyır. İsbat edir ki, Rusiya Qarabağ məsələsində özünü varisi saydığı SSRİ-nin siyasətini davam etdirərək, ermənipərəst addımlar atıb, atmaqda davam edəcək.

Yeri gəlmişkən, Qarabağ problemini başladan tərəf SSRİ-dir. İlk dəfə buraya muxtar status verərək, bundan əvvəl və sonra Azərbaycanın bir çox ərazilərini qonşularına güzəştə gedərək, Azərbaycan xalqının hüquqlarını, Azərbaycan dövlətinin suverenliyini bölən də məhz SSRİ-dir.

Onun hüquqi-siyasi varisi isə müasir Rusiya dövlətidir. Sülhməramlı missiya isə qərəzsiz tərəfə əmanət edilir. Belə bir məqamda anlamaq olur ki, Rusiyanın Qarabağdakı missiyası sülh deyil, öz mənafeləri istiqamətində işğalı uzatmaq cəhdidir. Həmçinin sülhməramlı missiyaları BMT planlaşdırır, hüquqi mexanizm onun prinsip və şərtləri əsasında qurulur. Ona görə ki, hər üç ölkə - Azərbaycan, Ermənistan, Rusiya BMT-yə üzv ölkələrdir və onun şərtlərinə riayət etmək kimi bir öhdəlik daşıyırlar.

Bunlarla kifayətlənməyən Rusiya, 30 illik işğal ərzində, elə indi də Qarabağa Azərbaycan tərəfdən bir vətəndaşı belə geri qaytarmağa maraqlı deyilkən, qısa müddət ərzində 50 mindən çox ermənini Xankəndiyə geri gətirib. Qərəz ortadadır. Adama deyərlər ki, 30 ildir harada idin?! Rusiya Qarabağda fövqəladə işlərlə məşğuldur. Rusiya Qarabağda məhkəmə, inzibati, sosial işlərlə məşğuldur. Bunlara nə ehtiyac var? Ərazidə sülhyaratma missiyasından başqa bir səlahiyyəti olmayan Rusiya, Qarabağda Moskvadaymış kimi davranır. Alt niyyətlər özünü bir daha qabardır".

**Onun sözlərinə görə, növbəti müharibənin başlanması istisna deyil:** "Ən əsası, əraziyə Rusiyaya məxsus ağır zirehli texnikaların daşınması da absurddur. Çünki ağır zirehli texnikalar əsasən müharibəyə hazırlıq işləri görülən ərazilərə daşınır. Məgər Qarabağda müharibəyə hazırlaşılır, yoxsa orada sülhə təkan vermək lazım idi?

Son günlərdə isə Rusiya Qarabağda təlimlər həyata keçirirdi. Təbii atılan bütün addımlar müharibənin hazırlıq işləri görüntüsünü verir. Azərbaycan xalqının narahat olması üçün əsaslı səbəblər var və bu səbəbləri birbaşa Rusiya yaradıb.

Sadalanan reallıq və faktlardan sonra Qarabağda Rusiya özbaşınalığının hökm sürməsi, məncə, heç kəsə sirr deyil. Bu özbaşınalıq çox rahat şəkildə təcavüzə çevrilə bilər.

Hər kəs Rusiyanı tanıyır, təcavüzkarlığına da bələddir. Belə riskli bir "yırtıcını" sülhməramlı adı ilə Qarabağda saxlamaq gələcək illər, ya da aylar üçün pis nəticələrə gətirib çıxaracaq. Hüquq və güc bizim tərəfimizdədir.

Gec olmadan belə bir absurdluğa - Rusiyanın Qarabağdakı sülhməramlı missiyasına son verilməlidir. Bunu əsaslandıracaq çox sayda hüquqi faktlarımız da var.

Ancaq bunun üçün Rusiya gərək ki, üzərinə düşən addımları atsın: Qarabağda ərazi-inzibati, siyasi, iqtisadi, fövqəladə işlərə müdaxilə etməsin, Araiki israrla masada qarşılamaq yerinə, onu Azərbaycan qanunlarına təslim etsin. Ərazidəki sülhməramlı missiyaya uyğun olmayan ağır zirehli texnikaları geri çəksin. Təlim keçirmək absurdluğuna son versin, separatist qüvvələr tərk-silah edilsin.

Ermənistan ordusu ərazidən çıxarılsın, daxili arenasında olan və israrla Azərbaycanı haqsız tərəf kimi göstərən rəsmi və media orqanlarını susdursun. Çünki sülh belə yaradılır.

Əks halda yeni münaqişələrə hazırlıq olur. Bütün bu addımların atılmaması isə Rusiyanın Qarabağa gəlişinin təcavüz və anti-Azərbaycan siyasətinin yeni bir parçası olmasının sübutudur".

**Kənan Novruzov**

# “Əl qumbarasını hazırladıq ki, əsir düşməyək”

## Qazi Sahib Qurbanov: “Morqa aparanda yarı yolda xırıldadığım üçün sağ olduğumu biliblər”



**İnsanı dəyərli edən onun cəmiyyətə nə qədər faydalı ola bilməsidir. Adi insanlar ya elm-incəsənət adamı olub böyük bir kütləyə xitab edə, ya da çevrəsindəki şəxslərə faydalı ola bilirlər. Ancaq hərbçilərimiz, igid oğullarımız var ki, onlar Vətənimizin bütövlüyü uğrunda canlarından keçməyə hazırdırlar. Bunun üçün döyüşlərdə böyük rəşadət və igidlik göstərərək, şəhidlik, qazilik kimi ən ali zirvəyə ucalırlar.**

**Vətən müharibəsində qələbəmizdə payı olduğu üçün qürurlanan, böyük şücaət göstərən qəhrəmanlarımızdan biri qazi Qurbanov Sahib Həsənəli oğludur.**

*“Şərq” qəhrəman qazi ilə müsahibəni təqdim edir:*

**- Özünüz haqqında qısa məlumat verməyinizi istərdik...**

- 1997-ci il sentyabrın 27-də Qazax rayonunun Daş Salahlı kəndində anadan olmuşam. Hazırda kənddə ailəmlə birlikdə yaşayıram. Ailədə 2 bacı, 1 qardaşıq. 2 qardaşım da olub. Onlar rəhmətə gediblər. Evin tək oğlu və ən kiçiyi mənəm. 2015-2017-ci illərdə kəşfiyyatçı kimi hərbi xidmət keçmişəm.

**- Döyüşlərə könüllü qatıldınız?**

- Bəli, 44 günlük müharibəyə könüllü qatılmışam. Müharibəyə yola düşməzdən öncə avtomobil qəzasına düşmüşdüm. Qabırğam sınmış, budum çatlamışdı. Vəziyyətim yaxşılaşsa da, çəliklə gəzirdim. 2020-ci il sentyabrın 21-dən dostlarımı səfərbəyliyə çağırırdılar, amma mənə zəng gəlmirdi. Maşın tutub Hərbi Komissarlığa yollandım. Gedən kimi məni çəliklə görüb "buyurun, əyləşin" deyib yer göstərdilər. Dedim: "Əyləşmirəm, yaxşıyam, mənim də adımı könüllülər sırasına yazın, cəbhəyə gedirəm". Hərbi biletimə baxıb gördülər ki, kəşfiyyatçıyam. Bildirdilər ki, sizi qəbul edərdik, lakin qəza keçirmisiniz. Gedin həkimdən kağız alın ki, yaralısınız. Həmin gün məni qəbul etmədilər. Üzgün halda qayıtdım. Evdəkilər nə olduğunu soruşanda heç nə demədim.

Sentyabrın 23-də bir də getdim. Yenə qəbul etmədilər. Sentyabrın 25-i bir daha ora üz tutdum. Dedim ki, mən aidiyyəti orqanlara müraciət edib, şikayət edəcəyəm. Bu sözlərimdən sonra kənd icra nümayəndəmiz arxamda dayandı. Söylədi ki, bu istək ki, sənin ürəyindən keçir, sənə dəstək verəcəm. Sağ olsun, dəstək göstərdi. Adımı könüllülər sırasına yazdırdım. Sentyabrın 27-də ad günüm oldu, 28-i günü Hərbi Komissarlığa çağırdılar.

**- Ailəniz könüllü olaraq yazılmanızı necə qarşıladı?**

- Əvvəlcə bilmirdilər. Sentyabrın 25-i evdə dedim ki, adımı könüllü yazdırmışam. Heç kim inanmadı, dedilər ki, qəzadan təzə çıxmısan, səni çağırmazlar. Sonra da təsəlli verdilər: ”Biz də istəyərik döyüşlərə getməyini, lakin yaralısan, özünə gəl, sonra yollanarsan”.

Sentyabrın 28-i saat 11-12 arası idi, o vaxtı zəng gələndə valideynlərim inandılar ki, könüllü yazılmışam. Özləri məni maşına qoyub apardılar. Evdəkilərlə görüşdüm, dedim ki, haqqınızı halal edin, ora ölməyə yox, öldürməyə gedirəm. Heç kəs məndən nigaran olmasın, tez-tez əlaqə saxlayacam. Qucaqlaşdım, görüşdüm. Dostlarım da məni yola saldılar.

**- Hansı bölgələrdə döyüşdünüz?**

- Füzuli, Cəbrayıl, Qubadlı, Laçın uğrunda gedən döyüşlərdə iştirak etdim.

**- Bir az da yaralanmağınızdan danışaq...**

- Oktyabrın 19-na keçən gecə Cəbrayıl istiqamətində gedən döyüşdə yaralandım. Kəşfiyyatçı kimi fəaliyyət göstərirdim. Qubadlıdan - düşmən arxasına keçiddən gəlirdik. Neytral zonada öncə bizi top atəşinə tutdular. Yanımıza mərmi düşdü, həmin mərminin dalğası məni qırağa atdı, qayaya dəyib yerə düşdüm. Həmin an huşumu itirmişdim. Yoldaşlarım da halsız vəziyyətdə yorğun idilər. İki gün düşmən arxasında kəşfiyyat aparmışdıq.

Öz tərəfimizə halsız vəziyyətdə çatanda əsgər yoldaşlarım məni yerə uzatdılar, özləri də uzandılar. Həmin vaxt düşmən yenə bizim olduğumuz yeri vurdu. Ayaqlarım qırıldı, kliniki ölüm keçirdim. Döyüş yoldaşlarımdan 6 nəfər də şəhid oldu. Huşumu itirmişdim. Əsgər yoldaşlarım məni tibb maşınına qoyaraq, döyüş bölgəsindən çıxarıblar. Komada idim, sonradan özümə gəldim. Oyananda qolumda sistem, ağzımda hava balonu var idi.

**- İndi vəziyyətiniz necədir?**

- Hazırda əsəblərim yerində deyil, yaralarım incidir. Yeridikcə elə bil ki, ayağıma bıçaq batır. Ayağımı yerə basan kimi ağrılar verir, həm də getdikcə çoxalır. Amma Allaha şükürlər olsun ki, yataq xəstəsi deyiləm.

**- Ölüm-dirim savaşında olarkən ağlınıza kimlər, nələr gəlirdi?**

- O anlarda iki şey haqda düşünürdüm. Biri şəhidlik idi. Fikirləşirdim ki, anam, atam məni bağışlayar. Bir də düşünürdüm ki, nə yaxşı subayam. Arxada buraxdığım körpəm yoxdu. Digər bir şeyə görə sevinirdim ki, cəbhəboyu irəliləyirik. Arxaya çəkilmədən, ancaq önə gedirdik. Ona sevinirdim ki, 30 illik həsrətə son qoyuruq. Qanı qan ilə yuyuruq.

**- Ailənizlə mütəmadi olaraq əlaqə saxlaya bilirdiniz?**

- Çox vaxt telefon şəbəkəsi tutmurdu, əlaqə yaratmaq çətin olurdu. Bəzi yüksəkliklərə çıxanda şəbəkə tuturdu. Ona sevinirdik ki, ən azından ailəmizin səsini eşidə bilirik. Önə gedərkən danışanda anam harada olduğumu soruşurdu, arxadayam deyirdim. Ailəmə ön cəbhədə olduğumu bildirmirdim. Anamın səsini eşidəndə gözümdən yaş süzülürdü. Əlaqə yaratmayanda narahat olurdum ki, səslərini eşitmədim. Şəhidlik şərəfli zirvə olsa belə, döyüşə ölməyə yox, öldürməyə getmişdim. Ölümə can atmırdım.

**- Unuda bilmədiyiniz hansı anları deyə bilərsiz?**

- Döyüş zamanı çox hadisələr oldu. Bir dəfə düşmənin mühasirəsinə düşdük. Orada heç nədən qorxmurduq, sadəcə, əsir düşmək istəmirdik.

Mühasirəyə düşdüyümüz an nə qədər ratsiya əlaqəsi yaratmaq istəsək də, alınmadı. Son anımız idi. Əsir düşməmək üçün özümüzü ölümə hazırlayırdıq. Kəlmeyi-şəhadətimizi oxuyub, əl qumbarasını hazırladıq ki, əsir düşməkdənsə, özümüzü partladıb, kişi kimi ölək. Elə həmin an rabitə əlaqəsi yaradıldı. Canlı qüvvə gəlib bizi mühasirədən çıxardı.

Bir gün ehtiyat dəstəsində olanlara ərzaq aparırdıq, yanımıza mərmi düşdü. Mərmi qəlpələri yanımdakı əsgərin hər iki ayağını qopardı. O, qucağımda şəhid oldu...











### “Tibb bacısı dedi ki, telefonuna zəng gəlmişdi, qohumlarına şəhid olduğunu dedik"



Ən yaxın olduğum döyüş yoldaşım var idi - İsmayılov Rəhman, Ağstafa rayonundan idi. Şəhid olmazdan öncə mənə demişdi ki, şəhid olsam, uşağım oyuncaq istəyib, onu alıb verərsən. Mən də ona cavab verdim ki, bizə heç nə olmayacaq. Sağ-salamat geri dönəcəyik. Birbirimizi qucaqlayıb ağladıq. Mən yaralandım, ona heç nə olmadı. Aradan 5-6 gün keçdi. Artıq hospitalda idim. Eşitdim ki, Rəhman şəhid olub.

Qorxaq olsaydıq, döyüşə könüllü getməzdik. Hər dəfə soruşulanda ki, kəşfiyyatçılardan kim könüllü olaraq düşmən arxasına keçmək istəyir, həmin an irəli atılırdım ki, mən. Həmişə döyüşə hazır olmuşuq. Döyüş yoldaşlarımla birlikdə heç bir tapşırıqdan geri qalmırdıq.

**- Yaralandıqdan sonra ailənizlə ilk görüşünüz necə oldu?**

- Kliniki ölüm keçirdiyim üçün hospitala şəhid adı ilə aparılmışdım. Morqa aparanda yarı yolda xırıldadığım üçün sağ olduğumu biliblər. Tez qolumdan sistem asıblar. Füzulidəki hospitala apardılar. Özümə gəldikdən sonra tibb bacısı dedi ki, telefonuna zəng gəlmişdi, qohumlarına şəhid olduğunu dedik. Tez əlaqə saxla de ki, narahat olmasınlar. Anamla danışdım, yaxşı olduğumu dedim. Sadəcə böyrəyimdə ağrı olduğunu söylədim. Gördüm ki, onların da olanlardan xəbərləri yoxdur. Ona görə də yavaş-yavaş həqiqəti dedim. Yanıma gəlmək istədilər, lakin qoymadım. İstəmədim məni elə vəziyyətdə görsünlər. Sonra Beyləqana təxliyə olundum, oradan da Şəmkirə gəldim. Dayım oğlu Rahib, dayım Namiq və Cavanşir məni Şəmkirdən götürdülər. Evdəkilərin xəbəri yox idi. Onsuz da anamın ürəyi parça-parça idi. İstədim ki, ona sürpriz edib parçalanmış ürəyini yığım. Hamı məni görəndə şoka düşdü. Anam qucaqladı ağladı, atam və bacılarım da həmçinin...

**- Müharibə həyatınızda nələri dəyişdi?**

- Həyatımda çox şeyi dəyişdi. Bilmədiyim şeyləri başa düşdüm. Vətəni sevirdimsə, daha da çox sevdim. Döyüşlər yenə başlasa, bu halda belə getməyə hazıram.

**- Qələbə xəbərini eşidərkən hansı hissləri keçirdiniz?**

- Qələbə xəbərini eşidəndə xəstəxanadan çıxmışdım. Həmin gecə yatmamışdım. Hospitalda yaralı dostlarım var idi, onlarla danışırdım. Birdən xəbər gəldi ki, gözün aydın, Qarabağ alındı!. Həmin an evdəkiləri oyatdım ki, televizoru açsınlar. O gün səhərə qədər yatmadım. Elə bil həmin an mənə dünyaları bəxş etdilər. Həmin günümü şəhid analarına həsr etdim. Gedib şəhid analarını ziyarət etdim.

**Söhbətləşdi: Yeganə Bayramova**

# Pandemiya gəncliyi “vurdu”

## Bu təbəqə həm ailələri, həm də öz gələcəkləri üçün narahatdır



**BMT Əhali Fondunun dəstəyi ilə gerçəkləşdirilən ”COVİD-19” Pandemiyası Dövründə Gənclərin pozitiv vəziyyəti Araşdırması”na görə, ”distant təhsillə öyrənə bilmədiklərini” söyləyən gənclərin pandemiya dövründə psixoloji gərginliyə məruz qalma faizi də yüksəlib. Nəicələrə görə gənclər həm ailələri, həm də öz gələcəkləri üçün narahatdırlar. Dünyada olduğu kimi Türkiyədə də pandemiya dövrü 18-30 yaş arasındakı təqribən 13 milyon gəncə mənfi təsirini göstərib.**

Xüsusilə təhsil və məşğulluq sahəsində. 6 ay davam edən və 1000 gənci əhatə edən araşdırma **Ankara Universitetinin dosenti, doktor Tülin Şəkər** tərəfindən aparılıb. Araşdırma nəticəsində məlum olub ki, pandemiyanın səbəb olduğu stress və gələcəyə yönəlik narahatlıq gəncləri həm fiziki, həm də psixoloji baxımdan mənfi təsirə məruz qoyub. Araşdırmaya qatılan gənclərin 71 faizi ailə üzvlərinin və dostlarının sağlamlığı ilə bağlı əndişəli olduqlarını, 56 faizi şəxsi səhhətləri ilə bağlı daha az narahatlıq keçirdiklərini bildiriblər. 74 faiz alış-verişə və küçəyə çıxmağa çəkindiklərini, 47 faiz yuxu rejiminin pozulduğunu bildirib. Araşdırma məktəbə, təhsil müəssisəsinə və ya işə getməməyin gənclərə mənfi təsir etdiyini, dostlarla əlaqələrin onlara rahatlıq vermədiyini, xoş təəssürat buraxmadığını və iqtisadi durumla bağlı da problem yaşadıqlarını göstərib. Gənclərin təxminən yarısı pandemiya dövründə özlərini narahat hiss etdiklərini, 40 faizi isə əksinə, evdə qalıb, doğmalarla vaxt keçirmənin onlara müsbət təsir buraxdığını deyib. Araşdırmaya qatılan gənclərin böyük əksəriyyəti ”Uzaqdan tədris çətindir” deyərək distant təhsillə yetərli bilgi ala bilmədiklərini, bu tədris formasının onlarda motivasiya yaratmadığını və distant təhsili faydalı hesab etmədiklərini bildiriblər. Səbəblərsə, təxminən bizdə - Azərbaycanda olduğu kimidir; internet-elektrikin tez-tez kəsilməsi səbəbiylə dərslərin pozulması, motivasiya itkisi, müəllimlərin də yaşadıqları çətinliklər səbəbiylə dərslərdə davamlı iştirak edə bilməmələridir.

Gənclərin 26,6 faizi pandemiya dövründə iş yerini itirdiklərini deyib. Bəziləri isə məcburən işdən uzaqlaşdırıldıqlarını, bəziləri ödənişli iş saatlarının azaldığını deyib, 18-24 yaş arası gənclərinsə iş yerlərini daha çox itirdikləri məlum olub. Pandemiya dövründə gənclərin 33,18 faizinin şiddətə məruz qaldığı da məlum olub. Halbuki, pandemiyadan öncə bu göstərici 26,45 faiz idi. Ailədaxili şiddətə daha çox qadınların və 18-24 yaş arası gənclərin məruz qaldığı bəlli olub. Gənclər depressiv vəziyyətlə daha çox üzləşiblər. Psixoloji problemləri artıb.

”Enerjim getdikcə azaldı, yaşama sevincim tükənmə nöqtəsində, Təhsil, tədris həyatıma çox böyük mənfi təsir etdi, faydasız keçən onlayn dərslərsə sadəcə, vaxt itkisidir”, ”davamlı olaraq evdəyəm, özümü daha yaxşı tanıdım, qidalanmam pozulub, psixoloji problemlərim artıb”, ”iki il idi psixoloji vəziyyətimi düzəltməyə çalışırdım, amma daha da pozuldu, iqtisadi asılılığa düşdüm, 1 ildir yaşamadığım panik-ataklar geri döndü”, ”psixoloji olaraq çox gərginəm, bu, fiziki rahatsızlığıma da təsir edir, yaşadığım şəhəri və yaşam tərzimi buraxıb başqa şəhərə köçmüşəm”, ”sosial həyatım dayanıb, gündəlik həyat anlayışım qalmayıb, hər günüm eynidir, çünki. Tibb tələbəsi olaraq praktik dərslərin keçilməməsi nəzəri biliklərə olan marağımı azaldıb”, ”özüm, ailəm, yaxın qohumlarımızda ”COVİD-19” pozitiv çıxdı, babamı da itirdim. ”COVİD-pozitiv” mərhələsində və sonrakı mərhələdə də ruh düşkünlüyü davam edir, panik-ataklar, əsəb krizi psixoloji durumumda dərin iz buraxır” - bunlar anket sorğularına bəzi gənclərin verdikləri cavablardır.





**Fərqanə Mehmanqızı:**

*“Araşdırmadan görünür ki, gənclər daha çox distant təhsildən və evə qapanmalardan rahatsız olurlar”*



**Azərbaycanlı psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə açıqlamasında bu tip araşdırmaları problemlərin öyrənilməsində vacib olduğunu dedi:**

- Yaxşı olardı ki, bizdə də belə araşdırmalar aparılardı. Bu, pandemiyadan sonrakı dövrdə problemlərin həllinə kömək edə bilər. Araşdırmadan görünür ki, gənclər daha çox distant təhsildən və evə qapanmalardan rahatsız olurlar. Bu da təmamilə gözləniləndir. Baxmayaraq ki, distant təhsil dünyada var, bəzi özəl təhsil müəssisələri tədrisin bu formasından artıq çoxdandır istifadə edir, təhsillə bağlı hələ də ”təhsil parta arxasında olmalıdır”, yanaşması daha üstün mövqedədir. Halbuki bu, səhv yanaşmadır. Distant təhsili sevdirməyən şərtlər oldu. İnternetə əlçatmazlıq, dərslərin keyfiyyətinin aşağı olması, gənclərin də iddia etdiyi kimi biliklərin əldə olunmasının çətinliyi və sair. Əslində isə problemləri yaradan problemlərə baxışlarımızdır. Bir çox hallarda isə valideynlər yaradır bu problemləri. Konkret distant təhsillə bağlı deyim ki, valideyn övladı ilə birlikdə kompüter arxasında əyləşir, ”sən niyə cavab vermədin, niyə o biri şagird səni qabaqladı, qələmin niyə yerə düşdü...” Halbuki, bu kimi hallarla şagird məktəbdə də qarşılaşır, amma orada heç kim ona nəzarət etmir, qınamır. Valideynsə evdə şagirdi gözümçıxdıya salır. Nəticədə onlayn dərs şagirdə işgəncə kimi görünür. O cümlədən də tələbə gənclər. Niyə gənclər sosial şəbəkədə kimlərləsə dost ola bilir, yazışır, fikir bildirir, rəy yazır, amma distant təhsili sevmirlər? Onlayn, onlayndır. Olmasın sosial şəbəkə, olsun internet üzərindən təhsilalma. Gənclər onlayn dərsləri yetərincə keyfiyyətli hesab etmirsə, bunun günahı tədris müəssisəsindədi. Deməli, tədris müəssisəsi onlayn dərlsərin keyfiyyətli tədrisini təşkil edə bilməyib. Psixoloji gərginliklərsə pandemiya dövründə qaçılmazdır. Əsas səbəb də karantin qaydaları, tətbiq edilən məhdudiyyətlərdir. Evə qapanmalar, gənclərin dostları ilə alışdıqları formada görüşə bilməməsi, sərbəstliklərinin azalması psixoloji travmalara gətirib çıxarır. İnsanlar heç cür vəziyyətlə barışmaq istəmirlər, ”niyə evə qapadılmışıq, günahımız nədir, nəyin cəzasını çəkirik” kimi sualları beyinlərində daşıyırlar. İnsanın ən çox qorxduğu məhdudiyyətlərdir. Biz Şərq ölkəsi olduğumuz üçün buna avropalılardan, amerikalılardan daha həssas və anlayışlı yanaşırıq. Avropada, Amerikada isə insanlar indiyədək hədsiz sərbəst olduqları üçün, heç bir məhdudiyyətlə qarşılaşmadıqları üçün bu vəziyyət onları hövsələdən çıxarır. Avropalılar da, amerikalılar da zamanlarının böyük hissəsini adətən evdən kənarda keçirirlər. İş yeri, gəzinti, kafe, restoranda qidalanma. Bizim əhali evə daha çox bağlı olduğu üçün məhdudiyyətlərə o qədər də aqressiv yanaşmır. Gənclərsə istisnadır. Gənclər bir-biriylə daha çox ünsiyyətdə olurdular, gəzintiyə çıxırdılar, xüsusən tələbələr aktiv həyat tərzi keçirirdi, bir-birilə görüşür, söhbətləşir, vaxtlarını keçirirdilər. Əlbəttə, pandemiyanın gətirdiyi məhdudiyyətlərlə barışmaq bu baxımdan onlar üçün çətindir.

*F.Mehmanqızı bildirdi ki, pandemiya sonrası psixoloqlara ehtiyac daha da artacaq:* - Hazırda psixoloqlara müraciətlər var. Lakin pandemiya sonrası psixoloji yardımlara ehtiyac olacaq. Psixoloji yardım üçün ”Qaynar xətt” yaradılıb. Problem bundadır ki, bu haqda topluma məlumat çatdırılması lazımi səviyyədə deyil. Bu işin piarı düzgün qurulmayıb. Nə qədər adam məlumatlıdır bu ”Qaynar xətt” barədə? Bəlkə çox az insan. Amma bu iş elə bir səviyyədə aparılmalıdır ki, cəmiyyət ondan xəbərdar olsun və psixoloji dəstəyə ehtiyacı olduğu anda yardım üçün müraciət edə bilsin. Məncə, Təhsil Nazirliyi də məktəblərdə, ali təhsil müəssisələrində şagird və tələbələrə psixoloji dəstək göstərilməsi üçün layihələr işləməlidir. Bu məsələ ilə aktiv şəkildə məşğul olmalıdırlar.

**Məlahət Rzayeva**

# Minatəmizləyənlərin sayı artırılıb

**Proses sürətlə aparılacaq, azad olunmuş əsas yaşayış məntəqələri tezliklə vətəndaşlarımızın üzünə açılacaq**



"İşğaldan azad olunmuş ərazilərimizə qayıtmağımız üçün dövlətimiz mərhələli və planlı şəkildə yenidənqurma, bərpa işləri aparır".

**Bu sözləri "Şərq"ə açıqlamasında millət vəkili Azər Badamov deyib. Deputat vurğulayıb ki, yenidənqurma və bərpa işlərinə başlamaq üçün ilk növbədə azad olunmuş ərazilər minalardan və partlayıcı vasitələrdən təmizlənməlidir:** "Bu işin sürətlə icra edilməsi üçün dövlət başçısı İlham Əliyevin fərmanı ilə Minalardan Təmizlənmə Agentliyi yaradılıb. Agentliyin sədrini video-formatda qəbul edən Prezident bir sıra mühüm məqamlara toxundu. Cənab Prezident yeni təyin olunmuş sədrə işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ilə əlaqədar öz tapşırıqlarını verməklə

"Qarabağa özbaşına səfərlər insanların öz həyatını risk altında qoyması deməkdir"

yanaşı xalqa da müraciət edərək işğaldan azad olunmuş ərazilərə icazəsiz səfərlərin edilməməsini xahiş etdi. Təbii ki, bu, dövlət başçımızın öz vətəndaşlarının həyatına, sağlamlığına verdiyi yüksək dəyərin göstəricisidir. İnsanlar bu ərazilərə ancaq minalardan təmizlənərək təhlükəsizlik təmin olunandan sonra getməlidirlər".

*Parlament üzvü bəyan edib ki, ölkə başçısının da qeyd etdiyi kimi insanların yurd həsrəti və 30 illik intizarı başa düşüləndir:* "Amma özbaşına səfərlər insanların öz həyatını risk altında qoyması deməkdir. Son günlər belə icazəsiz səfərlər edən mülki insanların minaya düşərək dünyasını dəyişdiyinin və zərər çəkdiyinin şahidiyik. Bu, artıq dəfələrlə baş verib. Biz ölkə başçısının müraciətini hər şeydən üstün tutaraq bir az da səbrli olmalıyıq. Artıq minatəmizləyən qurum böyük agentliyə çevrilib. Agentliyin işçi personalı da dəfələrlə artıb. Həm də ən müasir minatəmizləyən maşınlar ölkəmizə gətirilir. Minatəmizləmə prosesi sürətlə həyata keçirilərək azad olunmuş əsas yaşayış məntəqələri tezliklə vətəndaşlarımızın üzünə açılacaq. Ona görə bölgəyə səfərlərin edilməsi üçün dövlətin icazəsini gözləməliyik və ancaq icazə verilmiş yerlərə getməliyik. Həm də icazəsiz gedənlərin sonunun yaxşı bitmədiyindən nəticə çıxarmalıyıq".

**İsmayıl**



## Şimali Makedoniya TAP-a qoşulmaq niyyətindədir

**Şimali Makedoniya bu ilin sonunadək 68 kilometr uzunluğunda Neqotino-Gevgeliya qaz kəmərinin tikintisi üçün tender elan edəcək**

Trend-in məlumatına görə, bunu Şimali Makedoniyanın nəqliyyat naziri Blaqoy Boçvarski deyib. Onun sözlərinə görə, hökumət 2021-ci ilin ortalarına qədər boru kəməri üçün tikinti icazəsinin alınacağına ümid edir. Nazir əlavə edib ki, Neqotinodan Bitola şəhərinədək və Skopyedən Qostivara qədər qaz kəmərinin tikintisinin bu il başa çatdırılması planlaşdırılır.

*Qeyd edə ki, Neqotino- Gevgeliya qaz kəməri Yunanıstanla sərhəddə yerləşən Gevgeliya şəhərindən Ştip-Neqotino boru kəmərinə birləşdiriləcək. Bu, Şimali Makedoniyanın Yunanıstan ərazisindən keçən TAP-a qoşulmasına imkan verəcək.*



# Şərqdən gözlənilən təhlükələr var

## Almaniyanın müdafiə xərclərini artırması ehtiyat tədbiridir

Almaniya hökuməti bu il müdafiə xərclərini rekord - 53,03 milyard avroya çatdırmaq niyyətindədir ki, bu da keçən ildəkindən 3,2 faiz çoxdur. Bu barədə "DPA" agentliyi Almaniyanın NATO-ya təqdim etdiyi sənədə istinadən xəbər verib.

"NATO ümid edir ki, Almaniya kimi ölkələr tərəfindən xərclərin artırılması, ittifaqın yükünün ədalətli bölüşdürülməsini tələb edən ABŞ-la fikir ayrılıqlarının həllinə kömək edəcək"- deyə, nəşr bildirib. Qeyd edək ki, 2020-ci ildə Almaniyanın müdafiə xərcləri 51,39 milyard avro olub. Bu, ÜDM-nin 1,57 faizini təşkil edib.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən hərbi ekspert Tərlan Eyvazov bildirib ki, Almaniya kimi qabaqcıl Avropa ölkəsinin müdafiə xərclərini gücləndirməsi təbii ki, şərqdən gözlənilən təhlükə ilə bağlıdır. Ekspert qeyd edib ki, Rusiya bütün dövrlərdə olduğu kimi son dövrdə də daha kəskin və fəal şəkildə qərbi təhdid etməyə başlayıb:** "Rusiya daima özünün hərbi gücünü nümayiş etdirməyə çalışır. O açıqdan-açığa öz qonşu və Avropa dövlətləriylə güc dili ilə danışır. Digər tərəfdən Almaniyanın özü həm də Avropa hərbi blokunun ayrıca NATO-dan kənar yaradılmasının təşəbbüskarıdır. Düzdür, bu, hələ ki uğurla nəticələnməyib. Amma hər halda bu ideyadan da vaz keçilməyib. Avropada əsasən Almaniyanın təşəbbüsü ilə dollardan qurtulmaq üçün avro buraxıldı. Yəni bütün birləşmiş Avropa ölkələrində avro dövriyyəyə girdi və hamısı istifadə etməyə başladı. Ola bilsin ki, dünyanın hegemon dövlətlərinin asılılığından qurtulmaq üçün bu addımı atırlar. Həm də Avropa ölkələri özlərinin güclənməsini istəyirlər və bu məqsədlə də hərbi sahəyə güclü maliyyə ayırırlar".

**Hərbi ekspert qeyd edib ki, digər tərəfdən bu həm də silah istehsal edən şirkətlərin maliyyəsi ilə bağlı ola bilər:** "Bu olduqca böyük maliyyə vəsaitidir. Bu, narkotika ticarətindən sonra ən böyük ticarət, qazanc mənbəyidir. Bir çox böyük transmilli və digər şirkətlər bu işdə işləyirlər. Burda yüz minlərlə insanın iş yeri var. Silahların satılması, hansısa ölkələrə ixrac olunması üçün büdcələrə əlavələrin edilməsi və hərbi xərclərin artırılması labüddür".

**Aynurə Pənahqızı**

# Avropa da "Metsamor"dan narahatdır



Fikrət Sadıqov: "Ermənistan bu stansiyanı nə qədər tez bağlasa, regionda təhlükəli durumun mövcudluğuna son qoyarlar"

Avropa Komissiyası işçi qrupunun 2020-ci ildə Ermənistanla tərəfdaşlıq sazişinin həyata keçirilməsinə dair hesabatında bəzi məqamlar yer alıb. Hesabatda qeyd olunub ki, Ermənistanın Metsamor şəhərində yerləşən atom elektrik stansiyasının müasir təhlükəsizlik tələblərinə uyğun olaraq təkmilləşdirməsi mümkün deyil. Buna görə də ən qısa müddətdə bağlanmalıdır:

"Metsamorda yerləşən nüvə elektrik stansiyası beynəlxalq səviyyədə tanınmış atom təhlükəsizliyi standartlarının tələb etdiyi səviyyəyə qaldırıla bilməz və bu səbəbdən mümkün qədər tez bağlanmalı və təhlükəsiz şəkildə istifadədən çıxarılmalıdır".

**Məlum hesabata dair fikirlərini "Şərq"lə bölüşən Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıqov söyləyib ki, "Metsamor" atom elektrik stansiyasının bağlanmasında Azərbaycanın da rolu yüksəkdir:** "Çünki dəfərlərlə deyirdik, məsələni beynəlxalq müstəviyə qaldırırdıq. Bütün beynəlxalq strukturlarda "Metsamor" atom elektrik stansiyası ilə bağlı kifayət qədər ciddi mövqe tuturduq. Həqiqətən də bu elektrik stansiya region üçün təhlükə mənbəyidir. Köhnəlmiş bir stansiyanın istifadə olunması əslində Ermənistan hakimiyyətinin özbaşınalığıdır. Onlar bütün resurslarından məhrum olan bir ölkədir. Cənubi Qafqazda nə təbii, nə də irimiqyaslı layihələri həyata keçirirlər. Hesab edirlər ki, nə vaxtsa "Metsamor" atom elektrik stansiyasını işlədə bilərlər. Amma yanıldılar, bu, cəfəng bir mövqedir. Sonuncu hesabat da göstərir ki, onların mövqeyi nəinki Azərbaycanın, hətta beynəlxalq təşkilatların mövqeyinə ziddir. Ermənistan bu stansiyanı nə qədər tez bağlasa, regionda təhlükəli durumun mövcudluğuna son qoyarlar".

**Yeganə Bayramova**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Faktlar, dəlillər ortadadır

## Qarabağda dağıntıların miqyası dəhşətlidir

Fevralın 6-da xarici ölkələrin səfirləri, hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri işğaldan azad olunmuş torpaqlarımıza - Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfərin məqsədi erməni quldurlarının Azərbaycanın tarixi torpaqlarını işğalda saxladıqları 30 ilə yaxın müddətdə törətdikləri vəhşiliklərin izəri ilə tanış olmaq olub. Xarici dövlətlərin təmsilçiləri Prezidentin köməkçisi Hikmət Hacıyevin və Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyovun müşayiəti ilə Cocuq Mərcanlıya, sonra Cəbrayıl və Zəngilana yollanıblar.

Zəngilanın mərkəzində dağıdılmış şəhər məscidinə, Mincivan yaşayış məntəqəsinə, Cəbrayılda dağıdılmış qəbiristanlığa, "Çinar" çay evinin qalıqlarına və digər dağıdılmış tikililərə baş çəkiblər. Nümayəndələr tarixi Xüdafərin körpüsündə də olublar. Səfər əsnasında diplomatlar ermənilərin Azərbaycanın tarixi abidələrinə, qəbiristanlıqlara, mülki əhaliyə vurduqları ziyanla yaxından tanış olublar. İşğaldan azad edilən rayonlarda törədilmiş vəhşilikləri öz gözləri ilə əyani şəkildə görüblər. Gördüklərindən heyrətə düşən diplomatlar belə acınacaqlı mənzərə ilə ilk dəfə qarşılaşdıqlarını deyiblər. Hikmət Hacıyev diplomatlar qarşısında çıxışında bildirib ki, Ermənistan işğal etdiyi torpaqlarda dini yerləri, məscidləri də yerlə yeksan edib. Lakin Azərbaycanda sinaqoqlar, kilsələr qorunur və yanaşı yerləşir. Prezidentin köməkçisi əlavə edib ki, yenidənqurma prosesində bütün dağıdılmış dini abidələr bərpa ediləcək: "Biz Prezidentin dediyi kimi, yenidənqurma işlərində qərarlı və qətiyyətliyik. Bərpa prosesi ilə bağlı artıq layihələr təsdiqlənib". H.Hacıyev bildirib ki, rəsmi Bakı beynəlxalq təşkilatların işğaldan azad olunan ərazilərdə fakttoplama prosesində iştirakını görmək istəyir: "Xüsusilə UNESCO-nun fakttoplama prosesində iştirakını və hesabat hazırlamalarını istəyirik. Mədəni, dini yerlərin Ermənistan tərəfindən necə dağıntılara məruz qoyulması sənədləşməlidir. Azərbaycan 30 ilə yaxın dağıntılarla bağlı faktaraşdırıcı missiyalar məqsədi ilə beynəlxalq təşkilatlara müraciət etsə də, nəticəsi olmayıb: "Bu gün artıq imkan var, hər şey açıqdır. Onlar gələ bilərlər". H.Hacıyev Mincivan yaşayış məntəqəsinin əhəmiyyəti barədə də qonaqları məlumatlandırıb. O bəyan edib ki, Mincivan yenidən regional nəqliyyat habına (şəbəkə -red) çevriləcək: "Sovetlər dövründə Mincivan regional nəqliyyat habı rolu oynayıb. Lakin erməni işğalından sonra tamamilə məhv edilib. Dəmir yolu relsləri metal kimi satılıb. Biz bu nəqliyyat habını yenidən bərpa etmək niyyətindəyik. Ümid edirik ki, Ermənistan tərəfi bu məsələyə qoşularaq qətiyyətli olduğunu nümayiş etdirəcək. Eləcə də bütün məsələlərdən lazımi nəticə çıxaracaq".

### Səfirlər, diplomatlar işğaldan azad olunmuş əraziləri gözləri ilə gördülər

Diplomatik korpus nümayəndələri ilə birgə Cəbrayıl rayonunda səfərdə olan Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp dağıntıların miqyasının kifayət qədər böyük olmasından təəssüfləndiyini deyib. Səfir vurğulayıb ki, bölgə tamamilə dağılıb və ruhlar şəhərinə çevrilib. Şarp həmçinin Britaniya şirkətlərinin Azərbaycana işğaldan azad olunmuş ərazilərində aparılacaq quruculuq işlərinə cəlb olunmasından da danışıb: "Qarşıda görüləcək çox işlər var. Bu ərazilərin vəziyyəti öyrənilməli, minalardan təmizlənməlidir. Daha sonra Britaniya şirkətləri burada bərpa olunan enerji, kənd təsərrüfatı, turizm baxımından maraqlı ola bilər".

İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari də qeyd edib ki, artıq nifrəti kənara qoymağın və regionda uzunmüddətli dayanıqlı sülhə nail olmağın vaxtıdır: "Etiraf edim ki, Cəbrayılda dağıntıları görəcəyimi, heç də yaxşı mənzərə ilə üzləşməyəcəyimi bilirdim. Xüsusilə də Cəbrayıl qəbiristanlığındakı həmin mənzərəni qeyd etməliyəm. Bütün bunlara görə bir daha bildirirəm ki, regionun müxtəlif xalqları arasında sülh şəraitində yaşayış üçün çalışmaq lazımdır. Ümid edirəm, Cəbrayıl qəbiristanlığında gördüklərimizə bir daha şahid olmayacağıq. Bu, hər hansı dinə, irqə, millətə aid olmaqla bağlı deyil. Bu, ölülərə hörmətlə bağlıdır. Azərbaycanlılarda olduğu kimi, italyanlarda da vəfat etmiş doğmalar çox vacibdir. Gəlin nifrəti arxada qoyaq və sülh içində birgə yaşayış üçün irəliyə baxaq". Massari bəyan edib ki, Roma Cənubi Qafqaz regionunun stabilliyində və təhlükəsizliyində maraqlıdır: "Xudafərin körpüsü simvolik olaraq sülh içində birgə yaşayışı təmsil etməlidir".

Vurğulamaq lazımdır ki, xarici ölkə səfirlərinin, hərbi attaşelərin və beynəlxalq təşkilatların erməni işğalından azad olunmuş ərazilərə səfərləri Prezident İlham Əliyevin təlimatına əsasən təşkil edilir. Məqsəd həmin ərazilərdə erməni vandallığını xarici diplomatlara əyani şəkildə göstərmək və gizlədilən həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır. Ona görə də bu cür ziyarətlərin mütəmadi təşkil olunması, xarici ölkə təmsilçilərinin Qarabağdakı dağıntıları öz gözləri ilə görməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla ilk növbədə uzun illər dünya ictimaiyyətinin gözünü boyamağa çalışan erməni təbliğat maşınının yalanları ifşa olunur. Həmçinin, Azərbaycan dünya ictimaiyyətinin diqqətini Qarabağa, erməni vəhşiliyinin izlərinə yönəldərək, düşmənin əsl mahiyyətini açır və rəsmi Bakının haqlı mövqeyini daha da gücləndirir.

**Millət vəkili, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında bildirib ki, indiki mərhələdə xarici nümayəndələrin işğaldan azad olunmuş ərazilərə səfərləri informasiya siyasətimizin mühüm komponentini təşkil edir.** Deputat xatırladıb ki, dövlət başçısı İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə erməni vandalizminin izlərinin saxlanılmasının vacibliyini vurğulayıb: "Ərazilərdə bərpa-quruculuq işləri aparılsa belə erməni vandalizminin izləri dəlil-sübut kimi qalacaq. Bu da informasiya müstəvisində imkanlarımızı əhəmiyyətli dərəcədə genişləndirəcək. Ortada reallıq var və bu reallıq ondan ibarətdir ki, 30 ilə yaxın bir müddətdə Ermənistan dövləti və erməni separatçıları Azərbaycan ərazilərində misilsiz dağıntılar həyata keçiriblər, əsl vandalizm aktları törədiblər. Azərbaycanın tarixi və mədəni irsinə qarşı ağlasığmaz terror ediblər. Təbii ki, bütün bunları dünyaya olduğu kimi çatdırmaq lazımdır. Ermənistan bu illər ərzində dünyanı yanlış informasiyalarla "doydurmağa" çalışıb. İnformasiya məkanı elədir ki, buranı heç vaxt boş saxlamaq olmaz. Əlimizdə kifayət qədər tutarlı faktlar, arqumentlər var. Maksimum səviyyədə bu faktlardan istifadə etməliyik. Erməni yalanlarını ifşa etməli, onların vəhşiliklərini dünyaya geniş miqyasda çatdırmalıyıq".

*Parlament üzvü vurğulayıb ki, xarici ölkə nümayəndələrinin ikinci dəfə işğaldan azad edilmiş torpaqlarımıza səfəri strateji əhəmiyyətə malikdir:* "Bu cür səfərlər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ermənilərin işğalçılıq mahiyyətinin dünya ictimaiyyətində təbliğ edilməsi baxımından olduqca mühümdür. Digər tərəfdən ermənilərin informasiya terrorunun qarşısının alınması istiqamətində çox vacib addımdır. Biz torpaqlarımızdakı erməni vəhşiliklərini birbaşa xarici ölkə təmsilçilərinin gözləri ilə ictimailəşdiririkdikcə, dünya artıq erməni yalanlarını qəbul etməyəcək. Ermənistanın saxta təbliğat maşını işləməyəcək, yəni erməni yalanları "ayaq tutsa da, yeriməyəcək". Bu, önəmli məqamdır. Çünki ermənilərin faş olması Azərbaycanın haqlı və ədalətli mövqeyini möhkəmləndirəcək. Xarici nümayəndələr erməni dağıntılarını yaxından gördükcə, ərazilərdəki vandalizmin izlərinə şahidlik etdikcə, Qarabağ məsələsində daha dolğun fikrə, aydın təsəvvürə sahib olacaqlar".

*E.Mirbəşiroğlu bəyan edib ki, Azərbaycan dövləti dağıdılmış regionda quruculuq-bərpa işlərinin ən keyfiyyətli şəkildə həyata keçirilməsində maraqlıdır:* "İşğaldan azad olunmuş ərazilərimiz dünyanın inkişaf etmiş məkanlarından birinə çevrilməlidir. Bölgədə beynəlxalq hava limanlarının tikilməsi, müasir nəqliyyat infrastrukturunun yaradılması bu məqsədə xidmət edir. Görülən işlər və açıqlanan planlar Qarabağa xarici investisiyaların cəlb olunması, iqtisadi xarakterli maraqların oyadılması baxımından vacibdir. Dünyanın müxtəlif ölkələrinin Cənubi Qafqaz bölgəsində geosiyasi və geoiqtisadi maraqları var. Xarici nümayəndələr təmsil etdikləri ölkələrin rəhbərlərinə Azərbaycanın məqsədindən söz açacaqlar. Bildirəcəklər ki, işğaldan azad edilmiş ərazilərin inkişafına nail olmaqla bütövlükdə regionun sabitliyinə və təhlükəsizliyinə şərait yaradılır. Bu amil Cənubi Qafqazda qalıcı sülhün və stabilliyin təmin olunması üçün zəruridir. İstənilən halda xarici ölkə nümayəndələrinin işğaldan azad edilmiş rayonlarımıza intensiv səfərləri Azərbaycanın strateji baxışlarına cavab verir".

Siyasi elmlər namizədi, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov da "Şərq"ə bildirib ki, erməni silahlı qüvvələrinin Qarabağı işğalı nəticəsində bölgədə yerləşən minlərlə kitabxana, onlarla məscid, yüzlərlə tarixi abidə və muzeylər məhv edilib. **Siyasi şərhçinin sözlərinə görə, işğal nəticəsində yüzlərlə tikili ya tamamilə dağıdılıb, ya da "erməni abidələri" kimi təqdim olunub:** "Erməni vəhşiləri tərəfindən dağıdılan mədəniyyət nümunələri təkcə Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə məxsusdur. Bu baxımdan tarixi-mədəni abidələrimizin mühafizəsi həm də beynəlxalq əhəmiyyət kəsb edir. Anlamaq lazımdır ki, erməni vandalizmi təkcə Azərbaycana, yaxud müsəlman dünyasına qarşı deyil, bəşər mədəniyyətinə təcavüzdür. Çünki tarixi və mədəni abidələrimizin dağıdılması Haaqa Konvensiyasına və digər beynəlxalq sənədlərə ziddir". Z.Məmmədov qeyd edib ki, Ermənistanın işğal olunmuş ərazilərdə törətdiyi vandalizm aktları arasında ekoloji cinayətlər də var: "Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində regionun təbii sərvətləri talan edilib. Ərazilərdə mütəmadi olaraq yanğınlar törədilib, regionun flora və faunasına, bölgənin ekoloji durumuna bərpa edilməyəcək zərər dəyib. Artıq reallıqlar dəyişib və dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Cənubi Qafqazda işğalçının, terrorçunun kim olduğunu yaxşı görür. İndi qlobal təşkilatların üzərinə böyük yük düşür. Beynəlxalq qurumlar fakt və dəlilləri əsas götürərək Ermənistanın hərbi-siyasi elitasını törətdikləri cinayət əməllərinə görə cəzalandırmalıdır. Əks halda, bir cür əməllər dünyadakı digər cinayətkar rejimlər üçün pis presendent olacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Şəhid ailələrini, qaziləri anlamaq çətin deyil

## Onların həyatında yaranmış boşluğu heç nəylə doldurmaq mümkün deyil



44 günlük Vətən müharibəsindən geriyə tarixi zəfərimizlə yanaşı ruhu yaralı oğullarımız, qazilərimiz və şəhidlərimizdən əmanət-yaxınları, sevdikləri qaldı. Şəhid ailələrinin evlərindəki boşluğun yerini doldura bilmərik.

Oğullarının, yoldaşlarının, qardaşlarının yerində onların bayraqlarla bəzədilmiş rəsmləri var. Şübhəsiz ki, igidləri ilə fəxr edirlər. Bir tərəfdən də itkinin verdiyi dərin acı ürəklərini yandırır. Kimisi dözür, şəkli, soyuq baş daşını bağrına basıb, yaşamağa çalışır. Amma bu müdhiş ağrıya tab gətirə bilməyən şəhid yaxınları da olmamış deyil. Çıxış yolunu intiharda görüb, canlarına qəsd edirlər. Kaş etməsələr... amma nələr yaşadıqlarını bilmirik, sadəcə görürük. Bu günə qədər bir neçə şəhidin ailəsində və yaxınında intihar halı qeydə alınıb. Məsələn, şəhid Mehdi Məmmədovun nişanlısı Mələk, onun şəhadət xəbərini eşidib, canına qıydı.

**Psixoloq Ramil Nəcəfli məsələni "Şərq"ə şərh edərkən bunları söylədi:** "Bu, insanlığın faciəsidir. Dünyanın hər yerində yaxınını, doğmasını itirmiş, müharibədən çıxmış insanlarda ciddi psixoloji təsirlər qalır. Nəticədə onların intihar etməsinə, müxtəlif davranış pozuntularına gətirib çıxarır. Özlərini boşluqda, lazımsız hiss edirlər, ağır depresiyaya düşürlər. Bunu dövlətin yardımı ilə ələqələndirmək olmaz. Hər zaman deyirəm ki, məmurlar, hökumət şəhid ailələrinə diqqət yetirməlidir. Amma bunlar kifayət deyil. Çünki motiv nə olsa da, ailənin həyatında faciə baş verib. İnsan həyatını kiməsə bağlayır, xoşbəxtliyini həmin adamda görür. Sonra o, həyatında olmayanda özünü boşluqda hiss edir. Beləliklə intihara əl atır. Bununla yanaşı təcrid olunub, özünə qapanır. Yəni bu dövlət qayğı göstərmədiyi üçün baş verməyib. Bəlkə də bir neçəsində diqqətsizlikdən ola bilər. Lakin əksəriyyətində səbəb itkidir. Onun üzüntüsü ilə belə addım atırlar. Şəhid yaxınıdır, kövrək davranması mümkündür. Yaxud da qazilərimizin intihar hallarından danışaq. Bəlkə də onların həyat qabiliyyətinin özünə qaytarılmasında, protezlə təmin olunmasında müəyyən qurumların rolu mühümdür. Beləliklə həyata qayıdarlar. Ancaq o boşluqdan yardımlara rəğmən çıxa bilməyənlər də var. Yəni bu kimi intihar hallarının birdən çox səbəbi mövcuddur".

**Samirə Ərəbova**



## Azərbaycan radioları Dağlıq Qarabağ və ətraf ərazilərdə yayımlanacaq

**Milli Televiziya və Radio Şurasının video formatda iclası keçirilib.**

İclasda işğaldan azad olunmuş ərazilərdə radio yayımın təşkili məsələləri müzakirə olunub.

İşğaldan azad olunmuş ərazilərdə yeni yayım tezliklərinin istifadəyə verilməsi ilə əlaqədar Şuşa şəhərində yerləşən Radio Televiziya Yayım Stansiyası (RTYS) vasitəsilə ümumölkə radio kanallarının ("Xəzər" radiosu, "Azad Azərbaycan" radiosu, "100.5 FM - Fərqli radio", "Avto FM" radiosu, "Araz" radiosu, "Space" radiosu, "Radio Antenn", "Media FM" radiosu) Dağlıq Qarabağ və ətraf ərazilərdə yayımının təşkil olunması barədə qərar qəbul edilib.

İclasda həmçinin, Dağlıq Qarabağ və ətraf ərazilər yeni regional radio kanalının açılması üçün 102,7 MHs işçi tezliyinə 10 fevral 2021-ci il tarixdən 12 mart 2021-ci il tarixədək müsabiqə elan edilib.



# 14 yaşlı qızın ərə verilməsi cinayətdir

## Gürcüstanda baş verən hadisəyə Azərbaycandan böyük təpki göstərildi

Mirzə Cəlilin "Ölülər" tragikomediyasında azyaşlı qızların, cocuqların Şeyx Nəsrullahla kəbinini kəsirlər. O məşhur əsəri oxuyanda belə hadisələrin indi baş vermədiyini, ötən əsrlərdə qaldığını düşünürük. Yanılırıq! İndi də var qələm tutan körpə əllərə xına yaxıb "gəlin" adını verənlər. Baxmayın ki, 21-ci əsrdəyik, yenə də görürük, duyuruq azyaşlı qızını nişanlayıb, evləndirənləri.

Eynilə Gürcüstanın Poniçala (Soğanlıq) adlanan ərazisində azyaşlı qızlarını nişanlayan ailə kimi. Həmin nişan mərasiminin videosu sosial şəbəkələrdə yayılıb. Görüntülərdə ailəsinin, qohumlarının 10-11 yaşlarındakı qızı "adət-ənənələrə" uyğun nişanladıqları ortadadır. Üstəlik, bəyin də yaşı azdır. Kənd camaatının "Unikal.org"a verdiyi açıqlamada qeyd olunub ki, qızın 14, oğlanın 19 yaşı var. Eyni zamanda oğlan qızın öz qohumudur. Bildirilib ki, uşaqların 3 il sonra toy mərasimləri baş tutacaq. Kəndin gəncləri isə erkən nişan hadisəsini qınayıblar. Onlar deyiblər ki, erkən evlənmə adət-ənənə deyil, stereotipdir.

Qeyd edək ki, məlum məsələ ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva bir sıra internet səhifələrində Gürcüstanın Poniçala (Soğanlı) kəndində iki azyaşlının nişan mərasimi ilə bağlı yayılan məlumatlar əsasında Gürcüstanın Xalq Müdafiəçisi Nino Lomcariyaya rəsmi müraciət edib.

Bu barədə Ombudsman Aparatında məlumat verilib. Həmin müraciətdə Ombudsman məsələnin ciddiliyini və həssaslığını nəzərə alaraq, Gürcüstanın səlahiyyətli dövlət orqanları tərəfindən faktın dərhal araşdırılması, həmin azyaşlıların hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsini xahiş edib.

**Məlum olayla bağlı "Şərq"ə danışan "Təmiz dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib ki, problemin kökündə müdafiə mexanizmi dayanır:**

> "Əminəm ki, Gürcüstanın hüquq-mühafizə orqanları məsələ ilə bağlı tədbir görəcək. Amma biz də müdaxilə etməliyik"

"Deyirlər, nişanlayırıq ki, kiminsə əlinə keçməsin, kimlərsə nə isə etməsin. Ya da sadəcə nişanlayırıq, az yaşında evləndirməyəcəyik. Halbuki, bir-iki il keçməmiş evləndirəcəklər. Əslində isə bu, uşağa qarşı cinayətdir. Əminəm ki, Gürcüstanın hüquq-mühafizə orqanları məsələ ilə bağlı tədbir görəcək. Amma biz də müdaxilə etməliyik. Orda azərbaycanlıların icması var, QHT-lər fəaliyyət göstərir. Onlar da azərbaycanlıların problemləri ilə maraqlanırlar. Yəqin ki, qadın komitəsinə də müraicət edilər və ailə ilə də danışarlar. İstənilən halda baş vermiş hadisə cinayətdir".

**Samirə Ərəbova**

# Yaxın aylarda koronavirus bizi tərk etməyəcək

## Kollektiv immunitet üçün əhalinin təxminən 70 faizi vaksinasiya olunmalıdır



Azərbaycanda bugünədək koronavirusdan 65 min nəfər peyvənd olunub. Bu barədə Nazirlər Kabineti məlumat yayıb. Fevralın 5-də ölkəyə 648 min doz peyvənd gətirilib. Ümumiyyətlə, ölkəyə cəmi 848 min doz vaksin gətirilib.

**Mövzu ilə bağlı fikirlərini bölüşən həkim-nevroloq Pərviz Axundov "Şərq"ə bildrib ki, bu rəqəm 20 günün statistikasıdır. Həkimin sözlərinə görə, 65 min rəqəmi işin məğzini bilmədən kənardan baxanda çox görünə bilər:** "Amma iş orasındadır ki, vaksinin kifayət qədər effektiv olacağı, eyni zamanda vaksinlərin gətirilməsi davam etdiriləcəyi (hazırda dünyadakı vaksin çatışmazlığı yaşanır) təqdirdə, bu, sürətlə lazım olan kütlənin vaksinasiyası 2153 günə baş tutacaq. Yəni kollektiv immunitetin formalaşması üçün əhalinin lazım olan təxmini 70 faiz hissəsinin vaksinasiyası olunması zəruridir. Bu da təxmini 70 ay deməkdir. Buna əsaslanaraq demək olar ki, nəinki yaxın həftələrdə, heç yaxın aylarda da "çağrılmamış qonağımız" bizi tərk etməyəcək. Əgər özü-özünə yumşalma istiqamətində mutasiyaya uğrayıb yoxa çıxmasa. Bəzi həkimlərin isə "yaz gələndə əvvəlki həyata qayıdacağıq" və ya "yay gələndə artıq hər şey geridə qalacaq" deyərkən, nəyə əsaslanması maraq doğurur".

P.Axundov vurğulayıb ki, İsraildə 50 yaş üzəri insanların 77 faizi artıq vaksinasiya edilib: "Yaxın iki həftədə bu rəqəm İsraildə 90 faizə çatdırılacaq. Bu arada İsraildə aparılan müşahidələrdə "Pfizer BioNtech" vaksininin klinik tədqiqatlarda olduğu kimi, kifayət qədər effektiv olduğu ortaya qoyulub. Ölkədə eyni zamanda 16-18 yaşlı yuxarı sinif məktəblilərinin də təhsilə davam etdirmələri üçün valideynlərinin icazəsi ilə vaksinasiyasına start verilib".

*Sonda həkim təklif edib ki, Çindən başqa digər ölkələrdən də vaksinlərin ölkəmizə gətirilməsi məqsədəuyğun olar:* "Belə ki, insanlarımızın bir qismi məhz vaksinin Çin istehsalı olduğunu əsas gətirərək, ondan imtina edir".

**Aynurə Pənahqızı**

# Təkliflər gözəldir, amma...



## Şuşada yazıçıların qurultayını keçirmək hələ ki, real görünmür

Yazıçı, araşdırmaçı jurnalist Tural Turan maraqlı təklif irəli sürüb. Belə ki, o, Azərbaycan Yazıçılar Birliyinin (AYB) növbəti - 13-cü qurultayının Şuşa şəhərində keçirilməsini təklif edib: "Onsuz da bu ilin iyul ayında Şuşada Vaqif poeziya günləri baş tutacaq. Xaricdən qonaqlar da dəvət olunacaq.

*AYB tarixində ilk dəfə olaraq Bakıda yox, bölgədə, özü də Şuşa kimi mədəniyyət paytaxtında öz qurultayını keçirsin. Bundan gözəl fürsət?!".Qeyd olunan təklif maraqlı və xoş səslənir. Bəs birliyin digər yazarları bu haqda nə düşünür?*

**"Şərq" qəzeti "Ulduz" jurnalının baş redaktoru, Əməkdar jurnalist Qulu Ağsəsin fikirlərini öyrənib.** O, deyir ki, Şuşada hansısa tədbirin keçiriləcəyini eşitmək inanılmaz bir hiss, eyni zamanda yuxu kimidir: "İlk növbədə ona görə sevinirəm ki, Şuşada tədbirlərin keçirilməsi ilə bağlı təkliflər səslənir. Bu, inanılmaz bir duyğudur. Biz uzun illərdir ki, Şuşa haqqında keçmiş zamanda danışırdıq. İndisə onun haqqında çoxsaylı planlar hazırlanır.

Bu dönəmdə Şuşaya çoxlu "diş qıcayanlar" ortaya çıxdı. Amma nə yaxşı ki, ölkə rəhbəri Azərbaycan xalqı və onun şəxsən özü üçün Şuşanın nə dərəcədə müqəddəs olduğunu bir daha ifadə etdi. Əslində cənab prezident bunu Şuşanı azad etməklə bildirmişdi. Lakin oranın necə müqəddəs bir torpaq olduğunu məmurların da diqqətinə çatdırdı.

*Qulu Ağsəs: "Çünki ora ancaq məhdud sayda qonaqlar dəvət oluna bilər"*

Şuşa Azərbaycan mədəniyyətinin paytaxtı elan edilib. Bu şəhər tezliklə bütün Qafqazın, MDB-nin, yaxın və orta Şərqin, eləcə də Avropanın da bir hissəsinin mədəniyyət paytaxtına çevriləcək. Bu, yaxın gələcəkdə baş verəcək".

**Qulu Ağsəs, həmçinin, hazırda orada qurultay keçirilməsi üçün yetərincə adamın toplaşa bilməyəcəyini, Şuşanın hələ kütləvi tədbirlərə hazır olmadığını nəzərə alaraq bu təklifin qeyri-mümkünlüyünü vurğulayıb:** "Bu il orada Xarıbülbül festivalı və Vaqif poeziya günləri keçiriləcək. Amma orada Yazıçılar Birliyinin qurultayını təşkil etmək əlbəttə ki, real deyil. Çünki Şuşaya hazırda məhdud sayda qonaqlar dəvət oluna bilər. Həm pandemiya ilə bağlı, həm də Şuşa hələ bütün bunları qarşılamağa hazır deyil.

Eyni zamanda hələ sülhməramlılar bizim təhlükəsizliyimizi tam təmin edə bilmir. Xeyir ola, biz niyə dünyanı fırlanıb Şuşaya gəlməliyik? Biz birbaşa Ağdamdan Şuşaya qalxmalıyıq. Ona görə də bizi qarşıda gözləyən çox işlər var.

Yəni hələ ki, Qarabağ minalar içindədir. Hələ ki, yeganə yolumuz Füzulidən yeni çəkiləcək yol olacaq. Buna görə də mən inanmıram ki, orada böyük tədbirlər keçirmək mümkün olsun. Mən bunu real saymıram. Amma gələcəkdə etmək olar.

Amma qoy Şuşa üçün bu cür təkliflər olsun. Bu cür xoş "hücumlar" edilsin ki, daha nələri edək. Amma bunların özü də tənzimlənməlidir, koordinasiya olunmalıdır".

**Ağarza Elçinoğlu**

# Qanun qarşısında hamı bərabərdir

## Polis əməkdaşı AzTV-nin aparıcısına qarşı nəzakətsizlik etməyib



**Bir neçə gün öncə AzTV-nin aparıcısı Aydan Axundovanın YPX işçisi Eldar Niftəliyevdən şikayəti yayılıb. O, instaqram səhifəsində status yazaraq polis əməkdaşının ona qarşı kobudluq etdiyini söyləyib.**

Məsələ ilə bağlı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsindən "Şərq"ə verilən rəsmi açıqlamada qeyd edilib ki, xanımın yol verdiyi qayda pozuntusu faktlarla sübut olunub: "Qeyd edirik ki, kimsə onunla kobud danışmayıb. Eyni zamanda bu, polis əməkdaşının adının hallanmasına əsas verən məsələ deyil. Burda qeyri-adi nə isə yoxdur. Çünki əməkdaşımız dayanma-durma qaydasının pozulması faktını aşkarlayıb. Bu zaman protokollar foto-şəkillər əsasında yazılır. Avtonəqliyyat vasitəsinin içərisi çəkilir, boş olması göstərilir. Dayanma-durma qadağan olan yerdə saxlanılması da əks olunur. Sonra inzibati-xətalar məcəlləsinə uyğun protokol tərtib edilir. Əməkdaşın nəqliyyat vasitəsinin sahibi ilə ünsiyyətdə olmasına da ehtiyac yaranmır. Sadəcə məlumatlandırıblar ki, dayanma qadağan olan ərazini boşaldın. Polisin qanunla tələbidir və əməl olunmalıdır. Əks halda inzibati qaydada tədbir görülür. Qayda pozuntusu xüsusi texniki vasitələrlə aşkarlanıb, sistemə ötürülür. Burda ziddiyətli bir məqam qalmır. Faktlarla sübut olunmuş qayda pozuntusudur və cəriməsi də yazılıb. Əgər orda əməkdaşımız təhqiramiz ifadə işlədibsə, ya da nəzakətsizlik olubsa, biz müdaxilə edib, qanunla araşdırma apara bilərik. Vətəndaş isə bildirib ki, mənə "sən" deyərək kobudluq edilib. Lakin bu, kobudluq nümunəsi deyil. Polis əməkdaşı böyük bir qəbahətə yol verməyib. Qanunun tələbləri hamı üçün eyni dərəcəlidir. Hər kəs bütün məsələləri hüquq çərçivəsində həll edib, münasibət bildirməlidir".

**Samirə Ərəbova**

## Təhsil müəssisələri tez açıldı

### Məktəblərdə məsafə saxlamaq mümkün olmayacaq



**Uzun müddətdir ki, şagird səsinə həsrət qalan məktəblərdə dərslər 1 fevraldan etibarən qismən bərpa edilib.**

Fevralın 5-nə olan statistikaya görə, yoluxmaların sayında stabillik müşahidə edildiyi zamanda ümumi təhsil müəssisələri üzrə 5 müəllim və məktəbəhazırlıq qrupuna cəlb olunan 1 uşaqda koronavirus infeksiyası (COVİD-19) aşkar olunub. 9 şagird, 2 müəllim, 1 məktəb psixoloqu, 1 laborant, 1 nəfər təlim-tərbiyə işləri üzrə direktor müavini isə koronavirus xəstəsi ilə təmasda olduğu üçün özünütəcrid rejiminə keçib. Bunun qarşısını almaq üçün mütləq əlavə tədbirlər görülməlidir. **Mövzu ilə bağlı "Şərq"ə danışan fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı bildirib ki, təhsil müəssisələri vaxtından tez açılıb:** "Onsuz da yoluxma halı müşahidə edilir. Növbəti günlər göstəricilərin necə olacağına kimsə zəmanət vermir. Yoluxmanın göstəriciləri koronavirusa qarşı görəcəyimiz tədbirlərdən asılıdır. Məktəblər, universitetlər açılırsa, məsafə saxlamaq mümkün deyil. İstəsək də edə bilmərik. Uşaqlar, gənclər biri-birlərini uzun müddətdir ki, görmürlər. Əlbəttə, məsafə saxlayıb ünsiyyət qura bilməzlər. İstər-istəməz müəllimlə təmasda olacaqlar. Həmçinin praktik məşğələləri, mühazirələri var". Ş.Namazlı vurğulayıb ki, müəllimlərdə peyvənd olunma məsələsi bitdikdən sonra işə başlasaydılar, daha məqsədəuyğun olardı: "İbtidai siniflərdə yoluxma varsa, uşaq orada yoluxub demək deyil. Yeqin ki, şagirddə virus olub, sonra digərləri yoluxub. İlk gündən deyirəm ki, fevral ayını gözləməli idik. Bu xəstəliyin ayrı əlacı yoxdur. Bütün dünya ölkələrinin mütəxəssisləri qabaqlayıcı tədbirlərdən başqa çarə deyə bilmirlər. Sabah bizi nə gözlədiyini bilmirik. Səbr edib gözləməliyik".

**Aygün Tahirqızı**

# Tələbələr üçün ən optimal variant müəyyənləşəcək

## Üç universitetdə əyani tədris fevralın 15-dən bərpa olunacaq



Pandemiyaya görə ali təhsil müəssisələrində əyani formada tədris 2020-ci il mart ayının 2-sindən etibarən dayandırılıb. Həmin vaxtdan bəri dərslər onlayn formada təşkil edilir. Lakin elə ixtisaslar var ki, onlar mütləq təcrübə tələb edir. Bu da praktiki məşğələlər tələb olunan ixtisaslara - tibb, yaradıcılıq, mühəndislik və s. aid olan dərslərin ənənəvi formada keçirilməsini zəruri edir.

Təhsil Nazirliyi tərəfindən verilən qərara əsasən, 2021-ci il 15 fevral tarixindən ali və orta ixtisas təhsili və peşə təhsili müəssisələrində praktiki məşğələlər tələb olunan ixtisaslar üzrə (müvafiq laboratoriya və xüsusi təchiz edilmiş auditoriyalarda) və təhsilalanların fiziki iştirakını tələb edən fənlərin və mövzuların əvvəlcədən müəyyən edilmiş cədvəllər üzrə tədrisi (tibb, yaradıcılıq, mühəndislik və s.) ənənəvi formada bərpa olunacaq. **Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, orta ümumtəhsil məktəblərindən fərqli olaraq, ali məktəblərdə dərslərin ənənəvi qaydada tədris edilməsi olduqca çətin bir prosesdir:** "Çünki ölkədə orta ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin çoxu evinə ən yaxın olan məktəbdə oxuyur və burada onlar valideynlərinin nəzarəti altındadır. Bu gün ölkəmizdə 51 universitet var ki, həmin müəssisələrdə ümumilikdə 182 min tələbə təhsil alır. Şagirdlərdən fərqli olaraq tələbələrin böyük əksəriyyəti müxtəlif ərazilərdə yaşayır. Dərsə gəlmək üçün onlar bir müddətlik kirayə ev tutur, yaxud yataqxanada qalırlar. Nəzərə alaq ki, pandemiya dönəmində yüksək hərəkətlilik o qədər də tövsiyə olunmur. Digər tərəfdən fevral ayı ərzində bərpa edilən ixtisasların sayı həftə ərzində maksimum 2-3 dərs təşkil edir. Məlum şəraitə görə, insanların bu qədər əziyyətə salınması məqbul hesab edilmir. Elə məhz bu səbəbdən Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetində dərslər 15 fevral tarixindən əyani formada tədris olunmayacaq və dərslərə onlayn formada davam ediləcək. Doğrudur, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində müəyyən qədər istehsalata yaxın olan praktiki işləri özündə əks etdirən fənlər olsa da, orada təhsil alan tələbələrin əksəriyyətinin rayonlardan olduğunu nəzərə alaraq dərslərin onlayn qaydada təşkili məqsədəuyğun hesab edilib".

**Kamran bəy hansı universitetlərdə dərslərin bərpa olunacağına da toxunub:**

"Azərbaycan Tibb Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetində tədris bərpa olunacaq. Çünki kimya, fizika, mühəndislik, xüsusən, tibb ixtisasında oxuyanlar üçün mütləq şəkildə tədrisin bərpası vacibdir. Çünki bu ixtisaslarda mövzular birbaşa, individual olaraq mənimsənilir. Qeyd etdiyim üç universitetdən başqa digərlərinin də bu sıraya qoyulacağını gözləyirik. Biz artıq proqramların üzərində işləyirik. Düşünürəm ki, tələbələrimiz üçün ən optimal variant müəyyənləşəcək. 15 fevral tarixindən əyani tədrisin bərpa olunacağı ali təhsil müəssisələrində vacib şəkildə sanitar-gigiyenik qaydalara riayət olunmalı, sosial məsafə gözlənilməlidir".

**Aytac Ali**

# Gənclərin çoxu eyni problemdən əziyyət çəkir

## Özünə qəsd edən hər 10 nəfərdən 8-i xəbərdarlıq edir



Ötən il Azərbaycanda qeydə alınmış intihar hadisələrinin sayı açıqlanıb. Azərbaycan Respublikası Baş Prokurorluğundan verilən məlumata görə, 2020-ci ildə respublika ərazisində 597 intihar faktı qeydə alınıb.

Bu, 2019-cu illə müqayisədə 32 nəfər çoxdur. Yəni həmin il 565 intihar hadisəsi qeydə alınmışdı. 2021-ci ilin başlanğıcından ard-arda gələn özünəqəsd xəbərlərindən bu ilin statistikasının son iki ildən heç də az olmayacağını deməyə əminlik yaradır. Bəs insanları bu addımı atmağa vadar edən nədir?

**Mövzu ilə bağlı psixoloq Lalə Əliyeva "Şərq"ə açıqlama verib. O deyib ki, son dövrlərdə intihar məsələsi aktual problemə çevrilib:**

"Psixoloji baxımdan insan çıxış yolu tapa bilmədiyi halda çətin situasiyalara düşür. İntihar cəhdlərini şərtləndirən amillər müxtəlif ola bilər: sevdiyi şəxsin itirilməsi, boşanma, cinsi zorakılıq, fiziki zorakılığa məruz qalma, əsəb pozuntusu, dərin depresiya, tənhalıq və s. Çox hallarda intiharı düşünən insan bununla bağlı bir çox işarələr verir. Özünə qəsd edən hər 10 nəfərdən 8-i xəbərdarlıq edir. İntiharı düşünən insan öz planlarını nə qədər ətraflı təsvir edirsə, bu ehtimal bir o qədər yüksəkdir. Həmçinin, özünəqəsd haqqında söhbətlər də intiharla bağlı fikirləri gücləndirə bilər. İntihara cəhd etmək istəyən insanlar daha çox psixi pozuntulardan əziyyət çəkirlər. Lakin demək olmaz ki, intihar etmək insanların hamısı psixoloji pozuntudan əziyyət çəkir. İntihara cəhd etmək istəyən insan psixoloji mənəvi ağrı hiss edir, yaranan konfliktlərlə başa çıxa bilmir və bir növ ümidsizləşir. Belə insanların yalnız bir məqsədi olur - yaxınlarının diqqətini özünə cəlb etmək və ətrafdakıların mərhəmətini qazanmaq. Bu isə əslində çox dərin psixoloji travmanın olmasından xəbər verir. İntihara cəhd edənlər arasında gənclər daha çox üstünlük təşkil edir. Gənclər arasında bu problemin olması, əslində, zəncirvari xarakter daşıyır. Yaşanan hadisələrə diqqətlə nəzər salsaq görərik ki, gəncin hansı formada intihara cəhd etməsi digərlərinin də eynilə o formanı təkrarlaması, intihar etməsi halı müşahidə edilir. Bu onların eyni problemdən əziyyət çəkdiklərinə və çıxış yolunu digərləri kimi intiharda gördüklərinə işarədir.

**Ağarza Elçinoğlu**



## IX siniflər üzrə sınaq qiymətləndirmə keçiriləcək

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən IX siniflər üzrə sınaq qiymətləndirmə keçiriləcək.**

İdarədən Trend-ə verilən məlumata görə, sınaq qiymətləndirmə fevralın 9-da mövcud epidemioloji vəziyyətlə əlaqədar onlayn şəkildə təşkil olunacaq.

Sınaq qiymətləndirmənin keçirilməsinin əsas məqsədi şagirdlərin buraxılış imtahanlarına hazırlıq səviyyəsinin müəyyənləşdirilməsindən ibarətdir.

Sınaq qiymətləndirmə riyaziyyat, ingilis dili və təlim dili üzrə keçiriləcək.

Ümumilikdə 85 sualın (təlim dili 30, riyaziyyat 25, ingilis dili 30 sual) cavablandırılması üçün şagirdlərə 3 saat (14:00-17:00) vaxt veriləcək.

Qiymətləndirmə bitdikdən sonra şagirdlərin topladığı bal ümumi təhsil müəssisələrinə göndəriləcək.

# "İnsanlar yalnız və çarəsiz qalanda intihara meyl edir"

## "Çünki münasibətlər insanları həyatda qalmağa sövq edir, inkişaf etdirir və gücləndirir"

"Davam edə bilmək üçün çox yorğunam", "Səhv insanla evləndim və həyatımı məhv etdim", "O getdi və hər şeyimi itirdim", "Mən əzab çəkmək üçün doğulmuşam". Bu kimi cümlələr intihar edənlərin ən son işlətdiyi fikirlərdəndir. Bir deyimə görə isə intihar həyatdan fərarilikdir. O zaman belə götürsək, statistikaya əsasən, dünyada hər 40 saniyədə bir insan fərarilik edir... Azərbaycanda isə geridə qoyduğumuz bir həftədə dörd insan intihara üz tutub. Bəs niyə? Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov intiharın səbəblərindən və ən əsası onunla mübarizə yollarından "Şərq"ə danışıb:

**- İnsan niyə intihara üz tutur? O seçimdir, yoxsa məcburiyyət?**

- İntihar yardım çağırışıdır. İnsan mübarizə apara bilmədiyi hissləri nizamlamaq, dözülməz fikirlərə son qoymaq üçün yeganə yolun intihar olduğunu düşünür. Əslində intihar edən şəxs sözləri və bir çox davranışı ilə bunu bəlli edir. "Yaşamağın heç bir mənası yoxdur" , "intihardan başqa çıxış yolum yoxdur" kimi... Bu kimi fikirlər mütləq nəzərə alınmalıdır. Çünki şəxs özünü intiharın həll yolu olduğuna inandırır.

İntihar cəhdi olanların bir çoxu bunu ölmək üçün etmir. Özünü sevdirmək, maraq tələbatını ödəmək, özünü bağışlatmaq və ya müxtəlif hiss və düşüncələri ehtiva edən səbəblərdən dolayı intihara istiqamətlənir. İntihar edən insanlar bir çox hallarda ölməyi deyil, sahib olduqları həyatı yaşamaq istəyirlər.

**- Son bir həftədə artan intiharlar, sizcə, təsadüfdür, yoxsa dünyada hazırkı hadisələrin, ab-havanın təsiridirmi?**

- İnsanların bir qisminin həyatında baş verən ani dəyişikliklər, xroniki xəstəliyə tutulma və ya iqtisadi problemlər ümidsizlik hissi yaradaraq mübarizə aparmaq əvəzinə ölümü seçməsinə səbəb olur. Çünki inandığı və vərdiş etdiyi normal yaşama tərzi artıq qeyri-mümkündür. Qarşısına çıxacaq mümkün problemlər və ya həmişə yaşadığı həyat şərtlərinin dəyişməsi insanda əzab hissinin yaranmasına, çətinliklərlə zəngin həyatı seçməkdənsə ölümün daha qəti nəticə olacağını düşündürür.

**- Paylaşmaq çoxaldırmı? İntihar xəbərlərinin çox verilməsi intihara meyilli və ya müəyyən sıxıntıları olan insanların şüuraltında qalır, məncə, bu, daha da artmasına yol açır, siz nə düşünürsüz?**

- İntihar hadisələrinin mediada doğru formada təqdim olunmaması insanları bu addıma sövq edir. Bəzi hallarda intihar insanların diqqət çəkmə, problemi həll etmə çıxış yolu kimi təqdim olunur. Sonunu düşünmədən həyatını riskə ataraq gözlənilməz nəticələrə səbəb olur. Buna görə də bir çox ölkələrdə intihar xəbərləri xüsusi düzəlişlər olunduqdan sonra mediada öz əksini tapır. Cəmiyyət üzərində böyük bir təsirə malik olan media, intihar xəbərlərini diqqət çəkən tərzindən uzaqlaşdırmalı və alternativ həll yollarını əlavə edərək təqdim etməlidir.

**- Özümüzün və ya yaxınlarımızın intihara meyilli olub-olmadığını necə müəyyən edə bilərik?**

- İntiharla bağlı siqnalları əvvəlcədən anlamaq çox da asan deyil. Bunu doğru analiz etmək üçün həm psixoloji, həm də psixiatrik dəyərləndirmə mütləqdir. Tibbi narahatlıqları, sosial dəstəyin olub olmaması; iş həyatı, ailə münasibətləri, həm də şəxsiyyət xüsusiyyətləri kimi bir çox mövzular mütləq araşdırılmalıdır. Ailə daxilində münasibətlər nə qədər səmimi olarsa, o qədər çox profilaktik tədbirlər görmək daha asan olar.

**Ailə üzvlərinizi həqiqətən də tanıyırsınız?**

*** Onların psixoloji problemlərə qarşı nə dərəcədə müqavimət göstərə bildiklərindən xəbəriniz varmı?**

*** Stresslə mübarizədə hansı yollardan istifadə edirlər?**

*** Problemlərini sizinlə bölüşə bilirlər?**

*** Onu mühakimə edirsiniz? Kimi suallara cavab axtarmalısınız.**

Bu kimi bir çox sual ilə münasibətlərinizi dəyərləndirib həyatda qarşısına çıxan çətinliklər üçün ümid ola bilərsiniz. İnsanlar yalnız və çarəsiz hiss etdiyi zaman intihara yönəlir. Çünki münasibətlər insanları həyatda qalmağa sövq edir, inkişaf etdirir və gücləndirir.



Elnur Rüstəmov: "...Media intihar xəbərlərini diqqət çəkən tərzdən uzaqlaşdırmalı və alternativ həll yollarını əlavə edərək təqdim etməlidir"

**- İntihar etməyə cəhd edən insanla rastlaşsaq, adi vətəndaş kimi necə söhbət aparmalıyıq, necə yolundan döndərə bilərik?**

- İntihara səbəb olan problemlər həlli olmayan səbəblər deyil. Belə biri ilə qarşılaşdığımız zaman ilk olaraq həmin insanı təhlükəsiz vəziyyətə gətirmək lazımdır, yaşadığı problemlərin həll olunan faktorlar olduğunu göstərib, yaşadığı hisslərin depressiv epizodla əlaqəli olduğunu, özünü çarəsiz hiss etdiyini və onu başa düşdüyümüzü, əslində hər şeyin həll ola biləcəyini bildirmək lazımdır. Problemi həll edəcək yollara birlikdə qərar vermək lazımdır.

**- İstər intihara meyilli olan, istərsə də müəyyən sıxıntıları, problemləri olan insanlara nə məsləhət görürsüz? Necə mübarizə aparsınlar özləri ilə?**

- Tədqiqatlara əsasən intiharı bir dəfə yoxlayan birinin yenidən təkrarlama ehtimalı çox yüksəkdir. Buna görə də mütləq qarşısı alınmalıdır.

*1. İnsanda depressiya əlamətləri müşahidə olunursa, mütləq terapiya almalıdır. Depressiya intihar riskini artırır.*
*2. Bu müddətdə onu tək qoymaq olmaz.*
*3. Monoton həyatı dəyişdirilməli və fəaliyyətə təşviq edilməlidir.*
*4. Onu motivasiya edəcək sözlər deyilməlidir.*
*5. Hər hansı bir işlə məşğul olmasına köməklik etmək faydalı olar.*
*6. Sosial münasibətlərini gücləndirməyə çalışılmalıdır.*
*7. Ailə daxilində alınan qərarlarda fərdin roluna əhəmiyyət verilməlidir.*
*8. İntihar davranışı olan şəxslər mütləq psixiatrik və psixoloji dəstək almalıdır.*

**Sona Şıxamirli**

# Saymaqla bitməz

## Oturaq həyatın fəsadları bir deyil, iki deyil

Kompüter həyatımızın ayrılmaz hissəsinə çevrilib. Təəssüf ki, bu texnoloji alətin sağlamlığımıza bir çox mənfi təsirləri var. Mütəxəssislərin qənaətincə, uzun müddət oturma "ölü omba" sindromuna yol açır. Metabolizma 30 dəqiqəlik oturma müddətindən sonra 50 faiz daha yavaş işləməyə başlayır. Buna görə də çox oturmaq yağlanmaya və çəki artmasına səbəb ola bilər.



Kompüter stulunun söykənəcəyi düz olmalıdır

**Kompüter arxasında düzgün oturmamağın yaratdığı fəsadlarla bağlı "Şərq"ə danışan həkim-fizioterapevt Südabə Əliyeva bildirib ki, uzun müddət oturmaq ürək xəstəliklərini 50-80 faiz artırır:** "Əzələlər hər zaman işlək, onurğa sütunundakı fəqərəarası disklərin hamısı elastik olmalıdır. Onurğa sütunu oturaq həyatı sevmir, hərəkətdə olmaq lazımdır. Kompüter arxasında oturan şəxslər onurğa sütununda olan sıxılmaların qarşısını almaq üçün hər 35-45 dəqiqədən bir gəzişməli və yaxud gimnastik hərəkətlər etməlidirlər. Kompüter arxasında oturarkən kresloda əyləşmək düzgün deyil. Çünki həmin kreslolarda əyləşən zaman iki döş fəqərəsi də önə əyilərək fəsadlar yaradır. Hətta bəzən pasient gələndə onun sağ və sol döş qəfəsində kresloların yeri görünür. Bu da əlbəttə ki, boyun yırtıqlarına, döş fəqərəsində olan yırtıqlara, ən əsası bel fəqərəsində olan fəqərəarası disk yırtıqlarına gətirib çıxarır. Ona görə kompüter stulunun söykənəcəyi düz olmalıdır".

**Həkim qeyd edib ki, kompüter qarşısında düzgün oturmamaq yalnız bel ağrılarına deyil, həm də gözlərə ciddi sürətdə mənfi təsir edir:** "Peşəsi ilə əlaqədar olaraq uzun müddət kompüter qarşısında əyləşən şəxslər kompüterdən ən azı 70 sm aralıda əyləşməli və hər yarım saatdan bir 10 dəqiqə gözlərə fasilə verməlidirlər. Kompüterlə işləyən zaman gözlərin ağrımaması üçün otağın işıqlandırılması da önəmli faktorlardan biridir".

**Yeganə Bayramova**

### Təbrik edirik!



Əziz anamız **Kərbəlayi Firəngiz xanımı 80 illik yubileyi** münasibətilə ürəkdən təbrik edir, cansağlığı, uzun və mənalı ömür arzulayırıq. 100 yaşa, əziz ANA!!! Övladları və nəvələri.

## Müğənni 11 aydır evdən küçəyə çıxmır



**Müğənni Şebnem Ferah koronovirusun ilk günlərindən martdan bu yana evindən çıxmır.**

Axşam.az bildirir ki, 49 yaşındakı sənətçi heç kimi evində qonaq da etmir.

Ferah alış-verişi də köməkçilərinə etdirir. Bir ildir küçəyə çıxmayan ifaçı bütün gününü mahnılar yazmaqla keçirir. Şebnem makiyajsız şəklini sosial şəbəkə izləyiciləri ilə bölüşüb.

Konsertlərində hər zaman çox makiyaj etdiyi üçün tənqid olunan müğənni bu dəfə izləyicilərini təəccübləndirib.

# Beşəmlər zor günlərini yaşayır

## Ailə maddi imkansızlıq ucbatından onlara baxa bilmir



(Əvvəli səh: 16-da)

Hatayda həftənin 2 günü ödənişli olaraq sürücülük etdiyini, amma beşəmlərə baxmaq üçün maddi çətinliklər yaşadıqlarını söyləyən Huyluoğlu, "Bir xeyriyyəçi təşkilatın sayəsində yeni evə daşındıq, köhnə evimiz sobasız idi, uşaqlar tez-tez xəstələnirdi. Beşəmlərin sağlamlıq vəziyyətləri normaldır. Yavaş-yavaş böyüyürlər, 1 yaşlarına az qaldı. Bu dövrdə bir uşaq böyütmək zordur, o da ola beşəm. Həftənin yalnız iki günü ödənişli olaraq sürücülük edirəm, sonra gəlib həyat yoldaşıma kömək edirəm. Beşəmə baxmaq həqiqətən çətindir, bunun üçün xeyriyyəçilərdən, səlahiyyətlilərdən kömək gözləyirik. Dayə tutmaq imkanımız yoxdur, indi də diş çıxarmağa başladılar, bu müddət daha çətin keçəcək" deyə bildirib.

**Beşəm anası olmağın çox çətinliyindən danışan Merve Huyluoğlu (34) isə** "İnsanlar birinə baxa bilmir, mən beş körpəyə qulluq edirəm. Dayə də tuta bilmirəm, maddi imkanımız olmadığı üçün qayınanam kömək edir. Qayınanam da təzyiq, şəkər xəstəliklərindən əziyyət çəkir. Bəzən xəstələnir, mən uşaqlara tək başıma baxıram. Türkiyəyə gəldiyimdən bəri 6 aydır heç çölə çıxmadım. Bəzən mən də yoruluram, xəstələnirəm, amma mənim xəstə olmaq kimi bir lüksüm yoxdur, uşaqlarıma baxmaq, maraqlanmaq məcburiyyətindəyəm. Həm maddi və mənəvi olaraq çox zordur" deyə ana bildirib.

**Turan**

## "Nar" karantin rejimi müddətində müştərilərinin sorğularını operativ şəkildə cavablandırıb




**Koronavirus infeksiyasının yayılması ilə əlaqədar tətbiq edilən karantin rejimi müddətində "Nar" müxtəlif kanalları vasitəsilə gücləndirilmiş rejimdə abunəçilərinə xidmət göstərib.**

2020-ci il ərzində 777 Çağrı Mərkəzinə 2,5 milyondan çox sorğu daxil olub və onlara ortalama 20 saniyə ərzində cavab verilib. Qeyd edək ki, Çağrı Mərkəzinə zəng etmiş abunəçilərin 85%-i göstərilən xidmət səviyyəsini yüksək qiymətləndirib. Abunəçi sorğularının ilk zəngdən həllini tapması üzrə "Nar" Çağrı Mərkəzi 93%-lik yüksək göstəriciyə nail olub.

"Nar+" tətbiqinin onlayn çat xidmətinə 1 il ərzində 195 mindən artıq sorğu daxil olub. Tətbiq bir çox mühüm əməliyyatları saniyələr içində yerinə yetirməklə yanaşı, daxil olan sorğuları dərhal cavablandırır. Bundan başqa "Nar"ın rəsmi "Facebook", "İnstagram" və "Twitter" səhifələri vasitəsilə 205 mindən çox abunəçinin sorğusuna dərhal cavab verilib.

Xüsusi karantin rejimində abunəçilərə evlərini tərk etmədən "Nar" mərkəzlərindəki bir çox xidmətləri təqdim edən "Səyyar Nar" vasitəsilə 400-ə yaxın müştəriyə birbaşa ünvanlarında xidmət göstərilib. Qeyd edək ki, abunəçilər evlərini tərk etmədən SIM kartın dəyişdirilməsi, nömrə bərpası əməliyyatları, ASAN İmza xidmətinin aktiv edilməsi və digər xidmətlər üçün "Səyyar Nar"a müraciət edə bilərlər. nar-sim.az vebsaytı üzərindən isə 7500-də artıq abunəçi almaq istədikləri nömrəni seçib evə çatdırılma xidmətindən yararlanıb.

# 17 ildir məzarda yanan işıq söndü

## Səbəbi ürək dağladı

(Əvvəli səh: 16-da)

Həyatda ikən qorxduğu üçün qaranlıqda yata bilməyən Berna Şallının məzarı öldüyü gündən bu yana ailəsi tərəfindən işıqlandırılırdı. 17 ildir yanan işıq ötən günlərdə sönüb.



"Şərq" qəzeti türk mediasına istinadən xəbər verir ki, bir yük şirkətində çalışan və evlilik hazırlığı edən Berna Şallı, 17 il əvvəl toyuna bir ay qalmış qarın nahiyəsindəki yağları əməliyyatla aldırmaq istəyib. Dr. Edib Ilgaz tərəfindən liposuction üsuluyla əməliyyatdan sonra xəstəxanadan buraxılan gənc qız təkrar ağrılar hiss edib. İkinci dəfə əməliyyat masasına uzanan talehsiz qız ürəyinin dayanması nəticəsində həyatını itirib. Aparılan araşdırma zamanı gənc qızın həddindən artıq narkoz verildiyi üçün öldüyü ortaya çıxıb. Gənc qızın ailəsi, həkim Ilgaz haqqında iddia açıblar. Şallının ölümündə suçlu olan həkim, açılan təzminat iddiasında 81 min lirə ödəməyə məhkum edilib.

Berna Şallının anası Aişə Şallı, qızı qaranlıqdan qorxduğu üçün öldükdən sonra məzarını da işıqlandırmaq istəyib. Ağrılı ana, qızının məzarını işıqlandırmaq üçün Kepez qəsəbəsindəki evini satıb, Muratpaşa mahalında Andızlı qəbiristanlığının kənarındakı Balbey məhəlləsindən ev alıb. Qızının rahat yatması üçün məzardan evinə elektrik xətti çəkdirərək, məzarı işıqlandırıb. Ancaq Aişə Şallı evi köhnə olduğu və plana düşdüyünə görə Kepez mahalına daşınıb. Bununla da qəbiristanlıqda 17 ildir yanan işıq birdəfəlik sönüb. **Qəbiristanlıqda illərdir işıq görməyə alışan qəbiristanlıq vəzifəliləri də üzgündür:** "O qəbiristanlıqda işığı görməyə alışmışdıq. Artıq yanmır. Qəbiristanlığa yaxın olan vətəndaşlar da bura gəlib "Bir şeymi oldu?" deyə soruşurlar. Qızımız nur içində yatsın, məkanı cənnət olsun!".

**Turan**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 271

# 17 ildir məzarda yanan işıq söndü

## Səbəbi ürək dağladı



**Həyatda ikən qorxduğu üçün qaranlıqda yata bilməyən Berna Şallının məzarı öldüyü gündən bu yana ailəsi tərəfindən işıqlandırılırdı. 17 ildir yanan işıq ötən günlərdə sönüb.**

"Şərq" qəzeti türk mediasına istinadən xəbər verir ki, bir yük şirkətində çalışan və evlilik hazırlığı edən Berna Şallı, 17 il əvvəl toyuna bir ay qalmış qarın nahiyəsindəki yağları əməliyyatla aldırmaq istəyib. Dr. Edib Ilgaz tərəfindən liposuction üsuluyla əməliyyatdan sonra xəstəxanadan buraxılan gənc qız təkrar ağrılar hiss edib. İkinci dəfə əməliyyat masasına uzanan talehsiz qız ürəyinin dayanması nəticəsində həyatını itirib. Aparılan araşdırma zamanı gənc qızın həddindən artıq narkoz verildiyi üçün öldüyü ortaya çıxıb.

*(Davamı səh: 15-də)*

# 25 yaşlı qızı iti parçalayıb

## Olay Birmingem şəhərində yaşanıb



**İngiltərədə yaşayan 25 yaşlı Keira Ladlow it dişləməsi səbəbindən ölüb.**

O, yuxudaykən itin onu dişləməsi nəticəsində dünyasını dəyişib. (milli.az)Olay Birmingem şəhərində yaşanıb. Hadisə yerinə təcili yardım işçiləri gəlsə də, qızın həyatını xilas etmək mümkün olmayıb. Onun rəfiqələri bildirib ki, qız itləri çox sevirdi və həyat dolu biri idi.

# Antarktikada itirmişdi

## 53 il sonra pulqabısına qovuşdu



**ABŞ-da 91 yaşlı Paul Grisham 1967-ci ildə Antarktikada itirdiyi pulqabısına qovuşub.**

"Şərq" xarici media istinadən xəbər verir ki, San Diyeqo şəhərində yaşayan Paul Grisham, 1967-ci ildə ABŞ donanmasında meteoroloq etmək üçün Antarktikada 13 aylıq bir vəzifəyə təyin olunur. Burada pulqabısını itirən Grisham, 53 il sonra pulqabısına qovuşub. Arizona əyalətinin Douqlas şəhərində böyüyən Grisham, 1948-ci ildə ABŞ donanmasına xidmətə qatılıb. Grisham, hava vəziyyəti texniki və sonra meteorologiya mütəxəssisi olub. Grisham bir az sonra Antarktikaya meteoroloq kimi işə təyin edilir və oktyabr 1967-ci ildə qitəyə göndərilir. O, vəzifəsini yerinə yetirərkən pulqabısını itirir və bu pulqabı 2014-ci ildə Antarktikanın Ross adasındakı McMurdo stansiyasındakı bir quruluşun yıxılması zamanı tapılır. Bir çox e-poçt, ictimai media mesajı və məktubdan sonra pulqabı Grishama çatdırılır.

**Turan**

# 70 yaşında okeanda avar çəkdi

## 1 milyon dollar pul qazanıb




**İngiltərənin Oldham şəhərindən olan 70 yaşlı Frank Rothvell ilkə imza atıb.**

Frank, Altsheymer xəstələrini dəstəkləmək üçün kampaniya başladıb. Belə ki, o, bununla da 1 milyon dollar pul qazanıb.

Belə ki, Frank Atlantik Okeanında avarçəkərək səyahəti tamamlayan ən yaşlı insan olub.

BBC-nin xəbərinə görə, Frank Rothvell İspaniyanın Kanar adalarından 12 dekabr 2020-ci il tarixində qayıqla çıxdığı səyahəti 6 fevralda Antigua Adasında tamamlayıb.

Beləliklə, o, təkbaşına 4830 km yol qət edib.



# Övlad zəfəri

## Əfqan ana 15 yaşlı uşağına məhkəmə yolu ilə qovuşdu




**Əfqanlı bir qadın 5 yaşındakı uşağın anası olduğunu sübut etmək üçün Ankarada qanuni şəkildə mübarizə aparıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Ankarada baş tutan məhkəmədə uşağın anasının E.T. olduğu müəyyən edilib. Amma əfqan qadınının həyat hekayəsində böyük bir dram ortaya çıxıb. Belə ki, E.T 14 yaşında olarkən onu Əfqanıstanda özündən 40 yaş böyük biri ilə evləndirmək istəyiblər. Lakin atası vəfat etdikdən sonra o, ölkəsini bu səbəbdən tərk edir. Birlikdə İrana qaçdığı M.T.-dən onun övladı A.T.-i dünyaya gəlir. **Türkiyə mətbuatına açıqlama verən qadının vəkili Veli Taş bildirib ki, zorla evləndirilmək istəndiyi adam onu İranda taparkən qadın Türkiyəyə sığınıb:** "O, Ankaraya beynəlxalq qoruma üçün müraciət etdikdə, uşağın bioloji atası M.T.-dən şiddət gördüyü də məlum olub. Bu səbəbdən də uşaq dövlət himayəsinə götürülüb". Lakin gənc qadının yaşadığı problemlər Türkiyədə də bitməyib. Daxili İşlər Nazirliyinə edilən "beynəlxalq qoruma" müraciəti zamanı E.T.-nin ailə vəziyyəti subay olaraq göstərilib. Eyni qeydlərə görə, uşağa bioloji atanın soyadı verilib. E.T dövlət qurumlarından və BMT kimi beynəlxalq təşkilatlardan kömək istədikdə, övladının soyadı özünkündən fərqli olması səbəbindən bir sıra çətinliklərlə üzləşib. Vəkil Veli Taşın "uşağın təyin edilməsi" barəsində qaldırdığı iddia təxminən 2 ildən sonra nəhayət ki, sona çatıb. Məhkəmənin qərarında, ananın və atanın evli olmadığı təqdirdə uşağın qəyyumluğunun anaya aid olduğu bildirilib.

**Aynurə**

# Beşəmlər zor günlərini yaşayır

## Ailə maddi imkansızlıq ucbatından onlara baxa bilmir





**Türkiyənin Ailə, İş və İctimai Xidmətlər Nazirliyi koronavirus epidemiyası səbəbindən Səudiyyə Ərəbistanından gətirdiyi beşəm əkizlər artıq 10 aylıq olub.**

Beşəm anası olmağın çətinliyindən danışan Merve Huyluoğlu (34), "İnsanlar birinə baxmaqda çətinlik çəkir, amma mən 5 körpəylə məşğul olmaq məcburiyyətindəyəm. Maddi imkanımız olmadığı üçün dayə də tuta bilmirəm" deyə gileylənir.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, 2020 ilin iyul ayında Türkiyənin Ailə, İş və İctimai Xidmətlər Nazirliyinin təşəbbüsü ilə koronavirus səbəbindən Səudiyyə Ərəbistanından Türkiyəyə gətirilən Huyluoğlu ailəsi, qızları və beşəm körpələriylə birlikdə Hatayın Antakya qəsəbəsində həyatlarına davam edirlər. Səudiyyə Ərəbistanının Məkkə şəhərində epidemiya dövründə çətin günlər yaşadıqlarını bildirən Hüseyn Huyluoğlu (38), nazirliyin xüsusi bir çalışması ilə Türkiyəyə gəldiklərini vurğulayır.

*(Davamı səh: 15-də)*

# Qiyməti 1 milyon dollardır

## Maykl Cordanin imzalı idman ayaqqabıları rekord qiymətə satılır






**"eBay" alış-veriş saytında Amerika Milli Basketbol Assosiasiyasının (NBA) altıqat çempionu, əfsanəvi basketbolçu Maykl Cordanın imzası olan "Air Jordan 1" idman ayaqqabısı satışa çıxarılıb.**

Axşam.az xəbər verir ki, Maykl Cordan üçün 1985-ci ildə hazırlanan, lakin satışa çıxarılmayan ağ-qırmızı ayaqqabının qiyməti isə 1 milyon dollardır (təxminən 1 milyon 700 mnin manat).

*Qeyd edək ki, ötən il əfsanəvi basketbolçunun eyni tirajdan olan geyinilmiş idman ayaqqabıları hərracda 615 min dollara (təxminən 1 milyon 45 min manat) satılmışdı.*